# M Ü N D Ə R İ C A T


Komendant idarə üsulu.........3
Rusların köçürmə siyasəti.........6
Əhalinin sosial tərkibi.........11
Şimali Azərbaycanda Rusiya imperiyasının
iqtisadi siyasəti.........13
Rusiya müstəmləkəçiliyi əleyhinə üsyanlar.........21
XIX əsrin 40-cı illərində keçirilən islahatlar.........35
Cənubi Azərbaycan XIX əsrin 30-50-ci illərində
Sosial-iqtisadi inkişaf.........42
Babilər hərəkatı.........45
XIX əsrin birinci yarısında Şimali Azərbaycan mədəniyyəti.........47
İctimai-iqtisadi vəziyyət: sənayedə kapitalizmin yaranması.........53
Kənddə feodal münasibətlərinin sarsılması və
kənd cəmiyyətlərinin yaradılması.........56
Burjua islahatları.........58
XIX əsrin 70-90-cı illərində kənd təsərrüfatı.........64
Neft sənayesinin inkişafı.........68
Sənayenin başqa sahələri.........72
Sənətkarlıq, ticarət.........75
Millətin təşəkkülü.........78
Zaqatala üsyanı.........80
Kəndli hərəkatı və fəhlə tətilləri.........82
Sosial-iqtisadi həyat.........85
XIX əsrin ikinci yarısında Şimali Azərbaycan mədəniyyəti.........88

Milli mətbuatın təşəkkülü....................................................................................91
İncəsənətin inkişafı: teatr, musiqi, memarlıq....................................................92
XIX əsrdə Cənubi Azərbaycan mədəniyyəti........................................................94
AZƏRBAYCAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ
Şimali Azərbaycanda neft sənayesinin vəziyyəti. inhisarlar....................................96
Şimali Azərbaycanda sənayenin başqa sahələri ..................................................98
Şimali Azərbaycanda yüngül və yeyinti sənayesi..................................................100
Şimali Azərbaycanda kənd təsərrüfatı.................................................................104
Şimali Azərbaycanda aqrar qanunlar...................................................................109
Şimali Azərbaycanda sosial vəziyyət ...................................................................112
Şimali Azərbaycanda mövcud quruluşa qarşı çıxışlar. ..........................................115
Şimali Azərbaycan Birinci rus inqilabı illərində .....................................................117
Çarizmin Şimali Azərbaycanda milli qırğın siyasəti...............................................119
Şimali Azərbaycanda milli-demokratik hərəkat .....................................................121
Şimali Azərbaycanda milli partiyaların yaradılması ..............................................124
Azərbaycanlı deputatlar Rusiyanın Dövlət Dumasında.........................................127
1910-1914-cü illərdə Şimali Azərbaycanda
fəhlə və kəndli çıxışları .......................................................................................129
Cənubi Azərbaycan İran İnqilabı (1905-1911) ərəfəsində.
İnqilabın başlanması. Təbriz üsyanı. ....................................................................130
AZƏRBAYCAN BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ.......................................137
Müharibənin Şimali Azərbaycan iqtisadiyyatına təsiri. ..........................................141
Cənubi Azərbaycan müharibə ərəfəsində .............................................................143
Şimali Azərbaycan Fevral inqilabı və sonrakı dövrdə ...........................................145
XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti.....................................................150

**AZƏRBAYCAN**
**XIX ƏSRİN 30—50-ci İLLƏRİNDƏ**
**Komendant idarə üsulu.**

❖ Şimali Azərbaycan xanlıqları Rusiyan işğalı və işğaldan sonrakı dövrdə tədricən ləğv edilərək:

1. əyalətlərə - (Bakı, Şəki, Şirvan, Qarabağ, Talış əyalətləri),
2. dairələrə - (Yelizavetpol və Car-Balakən dairələri),
3. distansiyalara – (Qazax və Şəmşəddil distansiyaları) çevrilmişdi.

❖ Hər bir əyalət və dairənin başında komendant - rus zabiti dururdu.

❖ Ona görə də bu cür idarə üsulu tarixə komendant idarə üsulu (hərbi idarəetmə sistemi) kimi daxil olmuşdur.

❖ Rusiya Azərbaycanda bu idarə sistemini yaratmaqla əvvəllər mövcud olmuş dövlətçilik ənənələrini ləğv etməyə çalışırdı.

Təkcə ölüm hökmü vermək hüququ olmayan komendantların səlahiyyətlərinə daxil idi:

1) bəylərə torpaq bağışlamaq və ya torpağı onların əlindən geri almaq;
2) dövlət vergiləri və rüsumlarını təyin etmək;
3) neft quyularını, duz mədənlərini, balıq vətəgələrini icarəyə vermək və s.

- Əyalətlər mahallara bölünürdü.
- Mahalların başında komendantlar tərəfindən sədaqətli bəylərdən təyin olunan **mahal naibləri** dururdular.
- Mahal naibləri vergiləri kəndlilər arasında bölüşdürür, onların vaxtında yığılmasını təmin edir, mübahisə doğuran məsələləri həll edirdilər.
- Kəndlilər naiblərin torpağını əkir, məhsul yığımına kömək edirdilər.
- Komendant idarə üsulu üzrə idarəçilikdə ən aşağı pillədə **kəndxuda** və yüzbaşılar dururdu.
- Hər birinin yanında bir neçə onbaşı və yasavul olan kəndxudalar kəndləri idarə edirdilər.
- Mahal naibləri kimi, kəndxudalar da dövlətdən maaş almır, əvəzində vergilərin bir hissəsini özlərinə götürürdülər.
- Kəndxudalar kəndlərdə qayda-qanunun gözlənilməsinə, mükəlləfiyyətlərin yerinə yetirilməsinə, pul vergilərinin toplanmasına, yolların, körpülərin, suvarma arxlarının normal işləməsinə cavabdeh idilər.

❖ Məhkəmə (Qarabağda və Şəkidə - əyalət məhkəmələri, Bakı, Quba və Gəncədə - şəhər məhkəmələri) kollegial hesab olunsa da, əslində bütün məsələlər məhkəməyə sədrlik edən komendant tərəfindən təkbaşına həll edilirdi.

❖ Ağır cinayətlərə hərbi məhkəmə baxırdı.

❖ Hər bir əyalətdə ruhani idarəsinin başında baş qazı dururdu.

❖ O, ailə-nikah, vərəsəlik və bu kimi mülki işlərə baxırdı.

❖ XIX əsrin 20-30-cu illərində Cənubi Qafqazda vergilərin yığılmasında, mükəlləfiyyətlərin yerinə yetirilməsində komendant idarəsi məmurlarının özbaşınalıqları Rusiya hakim dairələrini məcbur etdi ki, oraya yüksək rütbəli dövlət məmurlarından ibarət komissiyalar göndərsin.

❖ 1829-1830-cu illərdə Cənubi Qafqazda yoxlamalar aparmış P.İ.Kutaysov və Y.İ.Meçnikov müsəlman əyalətlərində maliyyə-vergi sistemində saysız-hesabsız qanunsuzluqlar və özbaşınalıqlar aşkar etdilər.

❖ Senatorlar komendantların özbaşınalıqlarından dəhşətə gəlmişdilər.

❖ Maliyyə-vergi sisteminin hərbi üsullarla həyata keçirilməsi Şimali Azərbaycana ağır müstəmləkə zülmü gətirmişdi.

## Şimali Azərbaycana ermənilərin kütləvi şəkildə köçürülməsi.

- Şimali Azərbaycanın işğal olunmuş bölgələrinə İran və Türkiyədən ermənilərin köçürülməsi təsadüfi deyildi.
- I Pyotrun 1724-cü ildə verdiyi fərmanda Rusiyanın zəbt etdiyi ərazilərdə ermənilərin məskunlaşdırılması nəzərdə tutulmuşdu.
- I Pyotr tərəfindən əsası qoyulmuş planın həyata keçirilməsi üçün şərait XIX əsrin 20-30-cu illərində yarandı.
- İkinci Rusiya - İran müharibəsinin (1826-1828) gedişində İrəvan xanlığı tutulandan sonra köçürmə planını hüquqi cəhətdən təmin etmək üçün tədbirlər görülməyə başlanıldı.
- Erməni katolikosu Nersesin hazırladığı xüsusi köçürmə layihəsinin həyata keçirilməsində Rusiyanın İrandakı səfiri A.S.Qriboyedov əsas rol oynadı.
- A.S.Qriboyedov və general İ.F.Paskeviçin səyi nəticəsində Türkmənçay müqaviləsinin maddələri hazırlanarkən ermənilərin İrandan Azərbaycan torpaqlarına köçürülməsi məsələsi də öz əksini tapdı.
- Bu iş üçün xüsusi olaraq yaradılan köçürmə komissiyaları ermənilərin Azərbaycanın Naxçıvan, Qarabağ və İrəvan bölgələrinə köçürülməsini təşkil edirdilər.

❖ Köçürülən ermənilər üçün xüsusi imtiyazlar verilməsi nəzərdə tutulmuşdu.

1) Onlar 6 il müddətinə bütün vergi və mükəlləfiyyətlərdən azad edilirdilər.
2) Köçürülən ermənilərə İrandan alınan təzminat hesabına vəsait də verilirdi.

❖ 1828-1829-cu illərdə Azərbaycana İrandan 40-50 min, Türkiyədən isə 90 minədək erməni köçürüldü.

❖ 1911-ci itdə rus tədqiqatçısı N.Şavrov yazırdı ki, Cənubi Qafqazda yaşayan 1 milyon 300 min nəfər erməninin bir milyondan çoxunu buraya biz (yəni ruslar) köçürmüşük.

❖ Müharibədən sonrakı iki il ərzində İran və Türkiyədən köçürülmüş 120 mindən çox erməniyə azərbaycanlılara məxsus torpaqların bir hissəsi və 200 min desyatindən çox xəzinə torpağı ayrılmışdı.

❖ Köçürmə prosesi nəticəsində Şimali Azərbaycanda (Naxçıvan, İrəvan, Qarabağın dağlıq hissəsi) əhalinin etnik tərkibi kəskin dəyişikliyə məruz qaldı.

❖ Təkcə Naxçıvan xanlığı ərazisinə 2551 erməni ailəsi köçürüldü.

❖ Ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarında yerləşdirilməsi prosesi gücləndikcə onlar yerli əhalini sıxışdırmağa başladılar.

❖ Hələ köçürmə prosesinin başlanğıcında A.Qriboyedov yazırdı ki, *“bir müddət keçəndən sonra ermənilər məskunlaşdıqları Azərbaycan torpaqlarının onlara məxsus olduğunu iddia edəcəklər”.*

❖ Ermənilərin torpaq iddiası onlarla yerli əhali (azərbaycanlılar) arasında ziddiyyətlər yaratdı.

❖ Bu ziddiyyətlər getdikcə silahlı toqquşmalara gətirib çıxarırdı.

# Rusların məskunlaşması.
# Alman koloniyalarının yaradılması

❖ İşğal edilmiş torpaqlara rusların köçürülməsini aşağıdakı mərhələlərlə həyata keçirmək planlaşdırılmışdı:

1) ordu qərargahı ətrafında təsərrüfatlar və hərbi məskənlər yaradılması;
2) təriqətçi və bidətçilərin köçürülməsi;
3) Cənubi Qafqazın Rusiya imperiyasının müstəmləkəsinə çevrilməsinin miqyası genişləndikcə rusların ayrı-ayrı ərazilərdə məskunlaşdınlması.

❖ Hərbi xidmətlərini başa vuran əsgərlər burada qalmaq istəmədiklərinə və öz evlərinə qayıtdıqlarına görə 1821-ci il yanvarın 3-də verilən fərmana əsasən ordu qərargahları ətrafında təsərrüfatlar yaratmaq planını həyata keçirmək mümkün olmadı.

Bu plan baş tutmadığına görə işğal edilmiş ərazilərdə mülki əhalinin yerləşdirilməsinə üstünlük verilirdi.

❖ Şimali Azərbaycanda ilk rus məskənləri 18-30-cu illərin əvvəllərində yaradıldr. 1830-cu il oktyabrın 20-də verilən sərəncama görə Cənubi Qafqaz vilayətlərinə təriqətçi və bidətçilər köçürülməli idi.

❖ Baş komandan İ.F.Paskeviç bu sərəncamı yerinə yetirərək köçürülən rusların Qarabağ torpaqlarında yerləşdiriiməsi haqqında qərar verdi.
❖ XIX əsrin 30-40-cı illərində Cənubi Qafqazda salınmış 34 rus kəndindən 30-u Azərbaycan torpağında idi. 8600 təriqətçi və bidətçinin 7 min nəfəri Azərbaycanda məskunlaşdırıldı.
❖ Çarizm Azərbaycana köçürülən təriqətçi və bidətçiləri öz ictimai dayağına çevirmək üçün onlara qarşı dini təqibi dayandırdı, hətta onların hüquqlarını genişləndirdi.
❖ Rusların yaylaq və qışlaqlarda yerləşdirilməsi Azərbaycanın maldarlıq təsərrüfatına ciddi ziyan vurdu.
❖ Napoleonun Avropada apardığı müharibələr Almaniyanın təsərrüfatının pozulmasına və əhalinin doğma yerlərini tərk etməsinə səbəb olmuşdu.
❖ Rusiya Qafqazda yerli əhaliyə əkinçilik mədəniyyəti, əməksevərlik "öyrətmək" bəhanəsi ilə almanların Qafqazda yerləşdirilməsinə başladı.
❖ 1817-ci ildə almanların ilk dəstəsi Qafqaza gətirildi.
❖ 1817-1818-ci illərdə Qafqazda təşkil olunan 8 alman koloniyasından 2-si (Yelenendorf - indiki Göygöl rayonunun ərazisi; Annenfeld - indiki Şəmkirə bitişik kənd) Azərbaycanda salınmışdı.

## Əhalinin sosial tərkibi

❖ Rusiya - İran müharibəsi Azərbaycanda əhalinin sayca azalmasına səbəb oldu.

❖ Müharibə qurtarandan sonra Azərbaycanın təsərrüfat həyatında baş verən dirçəliş müharibə vaxtı köçüb getmiş əhalinin bir hissəsinin geriyə qayıtmasına səbəb oldu.

❖ Digər tərəfdən çarizmin köçürmə siyasəti (erməni, rus və almanların Şimali Azərbaycanda yerləşdirilməsi) də əhalinin ümumi sayının artmasına təsir etdi.

❖ Əhalinin çox hissəsi kəndlərdə yaşayırdı.

❖ Şəhər əhalisi isə ümumi əhalinin 10 faizini təşkil edirdi.

❖ XIX əsrin 30-50-ci illərində Şimali Azərbaycanda əhalinin sosial tərkibini:

1. hakim təbəqə (xan, bəy, ağa, sultan; ruhanilər - seyidlər, qazılar və b.),
2. aşağı təbəqə (rəiyyət, rəncbər, elat və b.) və
3. "üçüncü zümrə" (tacir və sənətkarlar) təşkil edirdi.

❖ Çar hökuməti ali müsəlman silkinin nümayəndələrinin nüfuzunu hər vasitə ilə zəiflətməyə çalışsa da, onların yerli əhali içərisində təsirinin güclü olduğunu nəzərə alaraq 1830-cu il iyulun 13-də fərman verdi.

❖ Həmin fərmana əsasən, Rusiya hökumətinə qarşı bədxahlıq üstündə və siyasi mülahizələrinə görə bu ölkədən məhkəməsiz sürgün edilənlərin hamısı əvvəlki yaşayış yerlərinə qaytarılmalı, onların müsadirə olunmuş malikanələri özlərinə verilməli idi.

❖ Çarizmin siyasətində ruhanilər də mühüm rol oynayırdı.

❖ 1829-cu ildə müsəlman ruhanilərinin hüquq və vəzifələrini müəyyən edən komitə yaradıldı.

❖ Şimali Azərbaycanda şeyxülislam (şiə əhalinin dini işləri ilə məşğul olmaq üçün), qazı və müfti (sünnilər üçün) vəzifələri təsis edildi.

❖ 1823-1852-ci illərdə şeyxülislam vəzifəsini Salyan axundu Məhəmməd Əli tutmuşdu.

❖ Ruhanilərin aşağı təbəqəsinin (mollalar, dərvişlər və b.) sayı getdikcə azalırdı.

❖ İmtiyazlı təbəqələr XIX əsrin ortalarında ümumi əhalinin 5-6 faizini təşkil edirdi.

❖ 1836-cı ildə erməni ruhanilərinin təhriki ilə alban katolikosluğu rəsmi olaraq ləğv edildi.

❖ Şimali Azərbaycanda əhalinin sosial tərkibində mühüm yer tutan kəndlilər ümumi ölkə əhalisinin 90 faizdən çoxunu təşkil edirdi.

❖ Onların əsas hissəsi dövlət kəndlilərindən ibarət idi.

❖ İkinci qrupa sahibkar kəndliləri daxil idi.

❖ Şərti olaraq üçüncü zümrə adlanan tacir və sənətkarlar əsasən şəhərlərdə cəmləşmişdilər.

## Şimali Azərbaycanda Rusiya imperiyasının iqtisadi siyasəti.

❖ Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra torpaq mülkiyyətinin iki əsas forması - xəzinə və xüsusi sahibkar torpağı mövcud idi.

❖ Tiyul, mülk, mülki - xalisə və vəqf qalmaqda davam edirdi.

❖ Bəhs edilən dövrdə tiyul torpaqlarının verilməsi üçün feodalların hərbi, mülki xidmətləri, həmçinin onların çar rejiminə sədaqəti əsas götürülürdü.

❖ Tiyul xüsusi mülkiyyət olmasa da, hüquqi varislərinin xidmətləri nəzərə alınaraq irsən nəsildən-nəslə keçə bilərdi.

❖ Mülk - feodalların irsi torpaq mülkiyyət forması idi. Mülk satıla, başqasına bağışlana bilərdi.

❖ Vəqf - dini idarəyə məxsus torpaq mülkiyyət forması idi.

❖ Dövlət kəndliləri kəndlilərin üçdəikisindən çoxunu təşkil edirdi. Onlar dövlətə çoxlu vergi verir, müxtəlif mükəlləfiyyətlər daşıyırdılar.

❖ Sahibkar torpağında yaşayan kəndlilər 35-ə yaxın vergi verir və mükəlləfiyyət yerinə yetirirdilər.

❖ Bütün kəndlilər suvarma suyundan istifadə əvəzində "bəhrə" adlanan vergi verirdilər.

❖ Şimali Azərbaycanda kənd təsərrüfatında əsas yeri əkinçilik və maldarlıq tuturdu.

❖ Texniki bitkilərin becərilməsinə də maraq artmışdı.

❖ Rusiyanın xam ipəyə tələbatının artması ilə əlaqədar olaraq Nuxa, Şuşa qəzaları və Car-Balakən dairəsində barama becərilməsi geniş vüsət almışdı.

❖ Cənubi Qafqazda istehsal edilən baramanın üçdəiki hissəsi Nuxa bölgəsinin payına düşürdü.
❖ 30-50-ci illərdə Nuxa qəzasında baramaçılığın geniş miqyas almasında 1836-cı ildə "Cənubi Qafqaz əkinçiliyi və ticarət sənayesini yayan cəmiyyət"in və 1843-cü ildə Nuxa şəhərində yaradılan "Təcrübə ipəkçilik məktəbi"nin böyük rolu olmuşdu.
❖ Nuxa əyalətinin xəzinəyə məxsus bütün tut bağları (çəkillik) pulsuz olaraq cəmiyyətin ixtiyarına verilmişdi.
❖ Moskva toxuculuq sənayesinin tələbatına uyğun olaraq 1840-1850-ci illərdə qızılboya (marena) istehsalının coşqun yüksəlişi başladı.
❖ Təkcə Quba əyalətində 335 min pud qızılboya istehsal olunmuşdu.
❖ Pambıqçılıq və zəfəran istehsalına isə maraq azalmışdı.
❖ Kənd təsərrüfatında məhsulun bir hissəsinin bilavasitə satış üçün istehsal olunması kənd təsərrüfatının qapalılığının aradan qalxmasına, əmtəə-pul münasibətlərinin inkişafına imkan yaratdı.
❖ Nəticədə 1852-ci ildə natural vergi pul vergisi ilə əvəz olundu.

- Müharibədən sonra Şimali Azərbaycanda sənətkarlıq sahələri də (xalçaçılıq, toxuculuq, dulusçuluq, ipəkaçma, metal emalı) dirçəldi.
- Qarabağ və Quba xalçaçılığın (xalça-gəbə, kilim, palaz, məfrəş, xurcun, heybə və s.) ən çox inkişaf etdiyi bölgə sayılırdı.
- Şuşa, Gəncə, Nuxa, Şamaxı şəhərlərində ipək parça və kəlağayı toxunurdu.
- Xalçaçılıq - gəbəçilik və ipək toxuculuğu sahələrini çıxmaq şərti ilə digər sənətkarlıq sahələri məişət ehtiyaclarının ödənilməsinə xidmət edirdi.
- 1827-ci ildə Şimali Azərbaycanda (Nuxa şəhərində) manufaktura tipli müəssisə - Xanabad "fabriki" meydana gəldi.
- 1836-cı ildə Xanabad manufakturası dövlətin təsis etdiyi "Cənubi Qafqaz ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyət”in ixtiyarına keçdi.
- Nuxadan başqa, digər şəhərlərdə də manufaktura tipli müəssisələr fəaliyyət göstərirdi.

❖ Azərbaycanda xırda əmtəə istehsalı ilə fabrik arasında keçid mərhələsi olan manufaktura feodal istehsal münasibətlərinin mövcud olduğu şəraitdə yaranıb fəaliyyət göstərsə də, inkişaf meylinə görə əsl kapitalist müəssisəsi idi.

❖ Bu dövrdə Azərbaycan üçün **müstəmləkə iqtisadiyyatı** (yəni istehsal natamam qalır, hazır məhsul istehsalı müəyyən fazada yarımçıq saxlanırdı) xarakterik idi.

❖ Rusiyadan ucqarlara (o cümlədən Şimali Azərbaycana) bir çox hazır malların gətirilməsi yerlərdə müvafiq istehsal sahələrinin inkişaf mərhələlərinin yarımçıq qalmasına gətirib çıxarırdı.

❖ Bu isə öz növbəsində iqtisadiyyatın birtərəfli inkişafı ilə nəticələnirdi.

❖ Azərbaycanın yeyinti məhsulları istehsalı sahəsində balıqçılıq xüsusilə yer tuturdu.

❖ 1829-cu ildə balıq vətəgələri bütünlüklə dövlətin sərəncamına keçdi və "Salyan xəzinə qəyyumluğu" yaradıldı.

❖ Burada muzdlu işçilər işləyirdilər.

❖ Yeyinti məhsullarından narın duz Cavad qəzasında, daş duz isə Naxçıvanda istehsal olunurdu.

❖ Neftə olan tələbat az olduğuna görə 30-50-ci illərdə Azərbaycanda az neft çıxarılırdı.

❖ Neft mədənlərinin iltizama verilməsi davam edirdi.

❖ İltizam sistemi neft, duz, zəy və s. sahələrin ləng inkişafına səbəb olurdu.

❖ Çünki mədənləri iltizama (icarəyə ) götürən şəxslər heç bir yeni texnika tətbiq etmirdilər,

❖ Neft mədənlərində icbari əməyin tətbiqi də neft hasilatının aşağı düşməsinə səbəb olmuşdu.

❖ 1848-ci ildə Bibiheybətdə texnik F.Semyonov dünyada ilk dəfə **qazma üsulu** ilə neft quyusu qazdı.

❖ XIX əsrin 30-50-ci illərində Şimali Azərbaycanda dağ-mədən sənayesi tədricən inkişaf edirdi.

❖ 1855-ci ildə Gədəbəydə xırda misəritmə zavodu inşa edildi.

❖ Ölkəmizdə mövcud olan ölçü, çəki, pul sisteminin müxtəlifliyi, həmçinin çarizmin Cənubi Qafqazda ticarət və gömrük siyasətindəki qeyri- müəyyənlik kimi amillər Şimali Azərbaycanda ticarətin inkişafına mane olurdu.

❖ Ticarətin inkişafı üçün ona mane olan əngəllərin ləğv edilməsinə başlanıldı.

❖ Çar hökuməti Azərbaycanda Rusiya pul sistemini tətbiq etmək üçün dövriyyədə olan yerli, İran və Türkiyə pullarını dəyişdirməyə başladı.

❖ 1839-1843-cü illərdə həyata keçirilən pul islahatı nəticəsində köhnə əsginaslar gümüş pulla əvəz edildi.

❖ Şimali Azərbaycanda Rusiya ölçü və çəki vahidlərinin tətbiq edilməsinə başlandı.

❖ 1821-ci il 8 oktyabr çar fərmanı ilə Cənubi Qafqazda güzəştli ticarət tarifi tətbiq edildi.

❖ Həmin tarifə əsasən əcnəbi ölkələrdən buraya gətirilən mallara beş faiz həcmində gömrük rüsumu qoyulurdu.

❖ Bu, Cənubi Qafqazda ticarətin çiçəklənməsinə gətirib çıxarsa da, rus fabriklərinin toxuculuq məhsulları burada rəqabətə dözmürdü.

❖ Ona görə də 1831-ci ilin iyununda yeni ticarət tarifi ("yasaqlı tarif") tətbiq edridi.

❖ Yeni tarifə əsasən Avropa malları üzərinə çox yüksək gömrük qoyuldu və əslində Cənubi Qafqaz keyfiyyətli Avropa malları üçün qapalı elan olundu.

❖ Rusiyanın toxuculuq sənayesi beynəlxalq rəqabətdən qurtardı.

❖ 1836-cı il 6 iyun fərmanı ilə rəhdar sistemi ləğv edildi.

❖ Bu tədbirlər nəticəsində Azərbaycanda daxili ticarətin dövriyyəsi genişləndi.

❖ Bakı şəhəri Azərbaycanın Rusiya ilə ticarətində böyük rol oynayırdı.

❖ Azərbaycan getdikcə Rusiya sənayesi üçün xammal mənbəyi və satış bazarına çevrildi.

❖ O, eyni zamanda Azərbaycan üçün xarici bazarı əvəz edirdi.

❖ Beləliklə, XIX əsrin 30-50-ci illərində Şimali Azərbaycanda əmtəə məhsullarının həcmi artmış, ticarət kapitalı çoxalmış, əmtəə-pul münasibətləri genişlənmişdi.

## Rusiya müstəmləkəçiliyi əleyhinə üsyanlar

❖ XIX əsrin 20-ci illərinin sonu - 30-cu illərinin əvvəllərində Şimali Azərbaycanda yerli əhalinin vəziyyətinin ağırlaşmasının və 30-cu illərdə baş vermiş üsyanların əsas səbəbləri bunlar idi:

1) milli və dini zülm;
2) xəzinənin, eləcə də iri feodalların xeyrinə toplanan ağır vergilər və icra olunan mükəlləfiyyətlər;
3) çar məmurlarının özbaşınalığı və rüşvətxorluğu;
4) köçürmə (ermənilərin, rusların və almanların) siyasəti;
5) natural verginin pul vergisi ilə əvəz edilməsi.

❖ Komendant idarə üsulunun iqtisadi, siyasi və inzibati tədbirləri ölkədə əhalinin səbir kasasını daşdırmışdı.

❖ XIX əsrin 30-cu illərində baş verən üsyanların əksəriyyətinə çar məmurlarının müflisləşdirdiyi və incitdiyi sabiq xanlar, bəylər, iri feodallar və ruhanilər başçılıq edirdi.

❖ Çarizmin müstəmləkə zülmü əleyhinə çevrilən bu üsyanlar fasilələrlə 10 ilə yaxın davam etmişdi.

## Car-Balakən üsyanı.

- ❖ 1830-cu ildə hərbi-strateji cəhətdən böyük əhəmiyyət kəsb edən, altı icmanın birləşdiyi Car-Balakən camaatlığında daxili muxtariyyət hələ qalmaqda idi.
- ❖ Çarizm camaatlığın daxili muxtariyyətini ləğv etmək, sonra isə bu əyalətlərin ərazisindən dağlıların milli-azadlıq hərəkatını boğmaq üçün hərbi istinadgah kimi istifadə etmək niyyətində idi.
- ❖ Bu məqsədlə general İ.F.Paskeviç əhalinin gözləmədiyi bir vaxtda, fevral ayında Car-Balakənə qoşun yeritdi.
- ❖ O, hücum etməzdən əvvəl əhaliyə doğma dilində yazılmış bəyannamə ilə müraciət etdi.
- ❖ Yürüşünün əsl məqsədini gizlədən general əhaliyə bildirdi ki, camaatlıq 1803-cü il "Andlı öhdəlik" şərtlərindən fərqli olan yeni qayda əsasında idarə ediləcəkdir. Vilayəti 9 nəfərdən ibarət müvəqqəti idarənin rəisi və camaat tərəfindən seçilən 6 nümayəndə idarə etməli idi.
- ❖ Əslində vilayəti rəis və iki məmur idarə edəcəkdi.
- ❖ Çünki camaatın seçdiyi 6 nümayəndə məşvərətçi səsə malik idi; yəni onların idarəetmə hüquqları yox idi.

❖ Yeni "Qaydalar"ın əsas mahiyyəti ondan ibarət idi ki, camaatlıq daxili muxtariyyətini itirir, çar hərbi dairəsindən asılı olan adi kənd yığıncağına çevrilirdi.

❖ 1830-cu il fevralın 24-də Alazan çayını keçən rus qoşunları martın 3-də Cara daxil oldular.

❖ Car-Balakəndə yeni "Qaydalar"da nəzərdə tutulan müvəqqəti idarənin yaranması ilə daxili muxtariyyətə son qoyuldu.

❖ Beləliklə, XIX əsrin 30-cu illərində çarizmin müstəmləkə zülmünə qarşı Azərbaycanda ilk üsyan məhz Car-Balakəndə başladı.

❖ Car-Balakən üsyanının əsas səbəbləri:

1) əyalətin idarə olunmasında yeni "qayda"nın tətbiqi;
2) müstəmləkə rejiminin güclənməsi;
3) əvvəlki illərdən qalmış vergilərin toplanması;
4) daxili siyasi müstəqilliyin ləğvi və s.

❖ Üsyana təkan verən əsas amillərdən biri də dağlıların çarizmə qarşı apardıqları milli-azadlıq mübarizəsi və Şeyx Şabanın camaatı çarizmə qarşı mübarizəyə çağırışı oldu.

- Müəyyən hazırlıqdan sonra üsyan iyun ayının 12-də başlandı.
- İlk toqquşmada rus qoşunları qalib gəldi.
- Bu qələbədən sonra rus generallarının əmri ilə əvvəlki illərdən qalan vergilərin toplanması, Zaqatala qalasının tikilməsi ilə əlaqədar icra edilən mükəlləfiyyətlər əhalinin mövcud rejimə olan nifrətini daha da artırdı.
- Sentyabrda Dağıstandan Həmzət bəyin rəhbərliyi ilə 2 min süvarinin Cara gəlməsi, habelə dağlı feodalların bir sıra silahlı dəstələrinin köməyi sayəsində qüvvələr nisbəti üsyançıların xeyrinə dəyişdi.
- Üsyançılar tezliklə Katexi tutub, Yeni Zaqatala qalasındakı rus qarnizonunun Balakənlə əlaqəsini kəsdi.
- Oktyabr ayında üsyançılar rus qoşunlarını məğlubiyyətə uğratdılar və Car vilayətinə yiyələndilər.

❖ Üsyanı yatırtmaq üçün çar zabitləri üsyan rəhbərlərini (Şeyx Şaban, Həmzət bəy) ələ aldılar.

❖ Onlar öz qoşunlarını çəkib getdikdən sonra üsyançıların birliyi pozuldu.

❖ Noyabrın 14-də əks-hücuma keçən rus qoşunları Car, köhnə Zaqatala, Göyəm kəndlərini ələ keçirdilər.

❖ 32 nəfər üsyan rəhbəri hərbi məhkəməyə verildi.

❖ Dekabrda Balakəndə başlayan üsyan da rus qoşunları tərəfindən amansızlıqla yatırıldı.

❖ Üsyanın məğlubolma səbəbləri:

1) üsyan rəhbərlərinin xəyanəti;
2) üsyançılara qarşı nizami ordunun vuruşması;
3) üsyançıların döyüş təcrübəsinin olmaması;
4) üsyançıların silahla pis təchiz olunması və s

## Lənkəran üsyanı-1831

- ❖ 1826-cı ildə Lənkəran xanlığı ləğv edildikdən sonra yaradılmış yeni inzibati bölgüyə görə xanlığın ərazisi əyalətə çevrildi.
- ❖ Digər əyalətlərdən fərqli olaraq Lənkəran (Talış) əyalətində yararlı torpaqlar az idi.
- ❖ Vergi və mükəlləfiyyətlərin çoxluğu, əkinəyararlı torpaqların azlığı, vergi yığanların və digər çar məmurlarının özbaşınalığı, komendant idarə üsulunun ağırlığı, ümumiyyətlə, müstəmləkə əsarəti əhalinin vəziyyətini dözülməz hala gətirmişdi.
- ❖ İranda yaşayan keçmiş Lənkəran xanı **Mir Həsən** əvvəlki hakimiyyətini qaytarmaq üçün 1831-ci il martın 5-də 30 atlı ilə Astara çayını keçib, Talış dağlarına doğru hərəkət etdi.
- ❖ Vəziyyətlərinin yaxşılaşacağına ümid edən kəndlilər ona qoşuldular. Üsyana qoşulanlar içərisində əhalinin bütün təbəqələrinin nümayəndələri var idi.
- ❖ Əyalətin komendantı podpolkovnik Korniyenkonun sərəncamı ilə Ərcivan mahalı əhalisindən toplanan silahlı süvari dəstə martın 10-da üsyançıların tərəfinə keçdi.
- ❖Üsyançıların sayı 2 min nəfəri keçdi.

❖ Qafqazda olan rus ordusunun əsas hissəsi Dağıstan dağlıları ilə mübarizəyə cəlb olunduğundan Lənkəran qalasında cəmi bir piyada batalyonu var idi.

❖ Bu isə üsyançıların qələbəyə inamını artırırdı.

❖ Üsyançılar martın 12-də rus qoşunlarının ilk hücumlarını dəf etdilər.

❖ Paskeviç üsyançılara qarşı mübarizə məqsədilə qonşu əyalətlərdən buraya 5 min nəfərlik qoşun göndərdi.

❖ Mir Həsən xan şəhər həndəvərinə gəlib çatdıqda onları iki topu və 500 canlı qüvvəsi olan nizami rus qoşunu qarşıladı.

❖ Üsyançıların qalanı tutmaq cəhdinin qarşısı alındı.

❖ Bu məğlubiyyətdən sonra üsyançıların bir qismi xanın başçılığı ilə Sələş kəndinə, digər hissəsi isə Bədəlan kəndinə çəkildi.

❖ Aprelin əvvəllərində xanın başçılıq etdiyi üsyançılar rus qoşunları tərəfindən Sələş kəndindən çıxarıldıqdan sonra bəylər və kəndxudaların əksəriyyəti, habelə kəndlilərin bir hissəsi üsyandan uzaqlaşdı.

❖ Aprelin 22-də rus qoşunlarının üsyançıların son sığınacağı olan Əmburana hücumu zamanı Paskeviç onlara müraciət edib bildirdi ki, kim müqaviməti dayandırsa bağışlanacaq, əks halda onlara divan tutulacaqdır.

❖ Bu müraciətdən sonra üsyançıların çoxu mübarizəni dayandırdı.

❖ Mayın 5-də Mir Həsən xan cemi 20 nəfərlə İrana qayıtdı.

❖ Beləliklə, iki aya qədər davam edən Lənkəran (Talış) üsyanı məğlubiyyətlə nəticələndi.

❖ Üsyanın məğlubiyyətinin əsas səbəbləri:

1) hərəkatın qeyri-mütəşəkkilliyi;
2) üsyan rəhbərləri olan bəylər, ruhanilər və hakim təbəqənin digər nümayəndələrinin xəyanəti;
3) Mir Həsən xanın əyalətin mahallarında keçmiş nüfuz və imkanlarından kifayət qədər istifadə etməməsi;
4) üsyançıların həlledici məqamda ləng hərəkət etməsi;
5) nizami orduya qarşı üsyançıların yaxşı silahlanmaması;
6) əhalidə olan ruh düşkünlüyü və s.

**Quba üsyanı 1837-1838**

❖ 30-cu illərdə baş verən üsyanlardan ən güclüsü Quba üsyanı idi.

❖ Car-Balakəndə və Lənkəranda baş verən üsyanın səbəbləri eynilə Quba üsyanına da aiddir. Quba əyalətində üsyanın əsas səbəblərindən biri də iltizam sisteminin tətbiqi idi.

❖ Varşavadakı müsəlman alayına əhalinin hesabına silahla, atla, paltarla təchiz olunmuş 36 nəfər süvarinin toplanması haqqında xəbərin yayılması üsyanın başlanması üçün bəhanə oldu. Bu xəbər bütün mahallara yayıldı.

❖ Gündüzqalaya toplaşan üsyançılar, o cümlədən kəndxudalar və üsyan rəhbərləri hakimiyyət qarşısında aşağıdakı tələbləri irəli sürdülər:

1. əyalətdə süvari toplanmasını dayandırmaq;
2. dövlət mükəlləfiyyətlərini azaltmaq;
3. komendant Gimbutu və onun ən yaxın adamlarından olan Cəfərqulu ağa Bakıxanovu, Məhəmməd xan Alpanskini əyalətdən qovmaq və s.

❖ Quba üsyanı 1837-ci ilin aprelində yuxarıda göstərilən şərtlərin irəli sürülməsi ilə başlandı.

❖ Birinci mərhələdə vaxt qazanmaq istəyən hökumət güzəştə gedərək mükəlləfiyyətlərin azaldılması istisna olmaqla qalan tələbləri qəbul etdi.

❖ Üsyanın ikinci mərhələsi 1837-ci ilin avqust - sentyabr aylarında başlandı. **Şeyx Şamil** üsyan rəhbərləri - Hacı Məhəmməd, İlyas bəy, Xurşud bəy, Həsən bəy və başqalarına məktub göndərərək onları silaha sarılıb, üsyana qalxmağa çağırdı. Onun çağırışı müsbət qarşılandı.

❖ 1837-ci il avqustun 20-də kəndxudalar Xuluq kəndində Hacı Məhəmmədin oğlunun toy məclisində üsyana başlamağı qərara aldılar və Hacı Məhəmmədi üsyan rəhbəri seçdilər. Yarəli onun köməkçisi təyin olundu.

❖ Üsyançılar komendantı əvəz edən İşşenkonun buyruq qulu Əlipaşa ağa Bakıxanovu Yasan kəndində öldürdülər.

❖ Üsyançıların sayı 12 min nəfərə çatdı. O biri üsyanlardan fərqli olaraq Quba üsyanında hücum planı hazırlamaq üçün **hərbi şura** yaradıldı. Plana görə, üsyançılar hər birində 4 min nəfər olmaqla üç dəstəyə bölündülər.

❖ Üsyanın hərəkətverici qüvvəsini kəndlilər, şəhər əhalisi, hökumətin siyasətindən narazı qalan bəylər, naiblər, kəndxudalar təşkil edirdi.

❖ Plana uyğun hərəkət edən üsyançıların sentyabrın 4-dən 5-nə keçən gecə Quba şəhərinə ilk hücumu zamanı Yarəlinin başçılıq etdiyi min nəfərlik dəstə mərkəzdən irəliləyib şəhər məhkəməsinin binasını ələ keçirdi.

❖ Şəhər əhalisinin üsyançılara qoşulan hissəsinin tərkibində hətta qız və gəlinlər də vuruşurdu.

❖ Sentyabrın 10-da rusların əks-hücumları nəticəsində üsyançılar ağır məğlubiyyətə uğradılar.

❖ Qazıqumuqlu Məhəmməd Mirzənin xəyanəti kəndlilərin və bəylərin Hacı Məhəmməddən uzaqlaşmasına səbəb oldu.

❖ Üsyançıların sayının minimuma endiyini görən Hacı Məhəmməd kəndliləri evinə buraxdı.

❖ Özü isə ailəsi ilə birlikdə doğma kəndi Xuluqa, oradan da Kürə xanlığına getdi.

❖ Keçmiş dostu Qazıqumuqlu Məhəmməd Mirzə xan onu oğlu ilə birlikdə xəyanətlə ələ keçirib hökumətə təslim etdi.

❖ Yarəli 6 nəfər üsyan rəhbəri ilə birlikdə qaçıb mübarizəni davam etdirirdi.

❖ Hökumət üsyanın səbəbini araşdırmaq üçün qraf Vasilçikovu Qubaya göndərdi.
❖ Bakıda təşkil olunan hərbi səhra məhkəməsində 37 nəfərə ağır cəza verildi.
❖ Hacı Məhəmməd edam olundu, oğlu Novruz Kaluqaya, qalan üsyançılar Sibirə sürgün edildi.
❖ 1838-ci ildə dağlıq rayonlara göndərilən hərbi ekspedisiya mübarizəni davam etdirən Yarəlinin üsyançı dəstəsini iyun ayında **Acıaxur** adlı yerdə məğlubiyyətə uğratdı.
❖ Üsyan rəhbərləri, o cümlədən Yarəli Rusiyaya sadiq qalacağına and içdilər və xəzinəyə xərac verməklə canlarını cəzadan qurtara bildilər.
❖ Mücahidlərin bir qismi dağlarda gizləndi.
❖ Quba üsyanının da məğlub olmasının səbəbləri digər üsyanlardakı ilə eynidir.

## Şəki üsyanı-1838

- XIX əsrin 30-cu illərində baş verən üsyanlardan biri də 1838-ci il Şəki üsyanıdır.
- 1835-ci ildə Qafqazın baş hakimi **baron Rozenin** vergi və mükəlləfiyyətlərdən azad olan maaflar üzərinə vergi qoymaq haqqında sərəncam verməsi onların güclü narazılığına səbəb oldu.
- Rozen öz sərəncamını ləğv etsə də, maafların hökumətdən narazılığını aradan qaldıra bilmədi.
- 1837-ci ildə özünü xanın varisi kimi qələmə verən, keçmiş Şəki hakimi Səlim xanın oğlu Hacı xanın tapşırığı ilə İrandan Şəkiyə gəlmiş Məşədi Məhəmməd üsyanın rəhbəri oldu.
- Çarizm əleyhinə təbliğat apardığına görə həbs edilən Məşədi Məhəmməd 1838-ci ildə həbsxanadan Dağıstana qaçdı və orada özünə 5 min nəfərə yaxın tərəfdar tapdı.

- 1838-ci ilin avqustunda üsyançılar Şəki əyalətinə daxil oldular.
- Şəhər yoxsulları da onlara qoşdu.
- İlk həmlədən üstünlüyü elə alan üsyançılar, qala istisna olmaqla, şəhəri ələ keçirdilər.
- Lakin əyalətlərdən əlavə kömək alan rus qoşunları sentyabrın 3-də üsyançıları məğlubiyyətə uğradıb, onları şəhər- dən çıxartdılar.
- Beləliklə, digər üsyanlar kimi, 1838-ci il Şəkidə baş verən üsyan da yatırıldı.
- XIX əsrin 30-cu illərində baş vermiş üsyanların məğlub olmasına baxmayaraq onlar təsirsiz qalmadı.
- Həmin üsyanların təsiri ilə XIX əsrin 40-cı illərində bir sıra inzibati, məhkəmə və aqrar islahatları keçirildi.

## XIX əsrin 40-cı illərində keçirilən islahatlar

❖ XIX əsrin 30-cu illərində baş vermiş üsyanlar yatırılsa da, onları doğuran sosial-iqtisadi, siyasi səbəblər qalmaqda idi.

❖ Çar I Nikolay uzun müzakirələrdən sonra komendant idarə üsulunun ləğv edilməsi və burada **inzibati-məhkəmə islahatı** keçirilməsi ilə əlaqədar hazırlanan layihəni bəyəndi.

❖ 1840-cı il 10 aprel qanununa görə, ümumrusiya qanunları əsasında quberniya, vilayət və qəza məhkəmələri yaradıldı.

❖ Şəriət məhkəmələri müzakirə olunur, yalnız kəbin-talaq və vərəsəlik məsələlərinə baxırdı.

❖ Qəza məhkəməsi hakimdən və vergi verən təbəqələri təmsil edən iclasçılardan ibarət idi. Artıq cinayət işlərinə hərbi yox, **mülki məhkəmələr**də baxılırdı.

❖ 1840-cı il 10 aprel qanununa görə, 1841-cl il yanvarın 1-dən Cənubi Qafqazda komendant idarə üsulu ləğv olundu.

❖ Cənubi Qafqaz:

1. Gürcüstan-İmeretiya quberniyasına (mərkəzi Tiflis olmaqla) və
2. Xəzər vilayətinə (mərkəzi Şamaxı olmaqla) bölündü.

❖ Quberniyalar və vilayətlər qəzalardan, qəzalar isə nahiyələrdən ibarət oldu.
❖ Mahallar ləğv olundu.
❖ Mahal naibləri olan bəylər idarə işindən uzaqlaşdırıldılar.
❖ Yeni inzibati bölgü ilə Azərbaycanın tarixən formalaşmış ənənəvi sərhədləri pozuldu.
❖ İnzibati və məhkəmə aparatının bütün pillələrində azərbaycanlılar rus məmurları ilə əvəz olundu.
❖ Ali hakimiyyət **Qafqazın baş hakimi**nə məxsus idi.
❖ Baş hakimin sədrliyi ilə Baş İdarə Şurası yaradıldı.
❖ Cənubi Qafqazda inzibati, məhkəmə və s. məsələlərə nəzarət və onların həlli bu şuranın ixtiyarında idi.
❖ 184-ci il aprelin 25-də imzalanan çar fərmanı ilə Qazax, Şəmşəddil və Borçalı ağaları, mayın 28-də isə Xəzər vilayətinin bəyləri tiyul torpaqlarından məhrum olundu.
❖ Torpaqları əllərindən alınmış bəylər çar hökumətinə düşmən kəsilir, ona qarşı çıxan silahlı dəstələrə qoşulurdular.

❖ I Nikolay Qafqazdakı vəziyyətlə tanış olmaq üçün hərbi nazir Çernışevi və Qafqaz komitəsinin sədri Pozeni oraya göndərdi.

❖ Onlar azərbaycanlı əhalinin nümayəndələri ilə tanış olduqdan sonra təkzibedilməz faktlarla islahatın yerli şəraiti nəzərə almadan hazırlandığı üçün uğursuzluğa düçar olduğuna inandılar.

❖ Aparılan təftiş nəticəsində 1842-ci ildə ağaların və bəylərin torpaqlarının müsadirəsi dayandırıldı, torpaq sahibkarlığı hüququ toxunulmaz elan edildi, hərbi nazirin sədrliyi ilə **Xüsusi Komitə** yaradıldı.

❖ 40-cı illərdə Şimali Azərbaycanın bir sıra bölgələrində (Şəmşəddil, Borçalı, Qazax, Yelizavetpol, Şuşa, Nuxa, Quba və s.) çarizmin müstəmləkə zülmü əleyhinə kəndli çıxışları baş verdi.

❖ Bu çıxışlar hökumətin yerli feodallarla yaxınlaşmaq meylini artırdı.

❖ Beləliklə, 40-cı illərdə keçirilən inzibati və məhkəmə islahatları istənilən nəticəni vermədi.

❖ 1844-cü ildə baş hakimlik ləğv edildi və Qafqaz canişinliyi yaradıldı. Qafqazın bütün hərbi və mülki hakimiyyəti canişinə məxsus idi.

❖ O, yalnız çarın qarşısında hesabat verirdi.

❖ Qafqazın ilk canişini **qraf S.M.Vorontsov** oldu.

❖ 1846-cı ildə Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayəti ləğv edildi və əvəzində Tiflis, Kutais, Dərbənd və Şamaxı, 1849-cu ildə isə İrəvan quberniyaları yaradıldı.

❖ Canişin öz vəzifəsinin icrasına başlayan kimi bəy və ağaların torpaq hüquqları haqqında layihə hazırlayıb çara göndərdi.

❖ 2 illik müzakirədən sonra 1846-cı il dekabrın 6-da bəy və ağaların hüquqları haqqında reskript (qanun gücündə olan rəsmi dövlət sənədi) imzalandı.

❖ On iki maddədən ibarət olan bu reskriptin 10 maddəsi bəylərin torpaq hüquqlarına, qalan ikisi feodal - kəndli münasibətlərinə aid idi.

❖ İlk dəfə olaraq bəy və ağalara məxsus torpaqlar onların irsi mülkiyyəti kimi təsdiq edildi, Azərbaycanda mülk və mülk-xalisə torpaqları kimi, tiyul da rəsmi olaraq bəy və ağaların mülkiyyəti elan olundu.

❖ Bəy və ağalar öz torpağı ilə istədiyi kimi rəftar edə bilsə də, torpağını yalnız öz silkindən olan şəxslərə sata və ya bağışlaya bilərdi.

❖ Reskriptlə ali müsəlman silki torpaq hüquqları baxımından rus zadəganları ilə bərabər hüquq qazansa da, siyasi və idarəetmə hüquqları ala bilmədi.

❖ Çünki çarizm bu silkə qarşı milli və dini ayrı-seçkilik siyasəti aparırdı.

❖ Bu reskript bəy və ağalara kəndlilər üzərində polis idarə üsulunu həyata keçirmək hüququ da verdi.

❖ 1846-cı il 6 dekabr fərmanı ilə hökumət yerli feodallarla ittifaqa doğru mühüm bir addım atdı, I Nikolayın 1843-cü il 10 mart fərmanı əsasında təsis edilmiş "ali müsəlman silki"ni mərkəzi hakimiyyətə yaxınlaşdırdı.

❖ Reskriptin əsas mahiyyəti onun sonuncu bəndində aydın ifadə olunmuşdu.

❖ Belə ki, Cənubi Qafqazın ali müsəlman silki ilk çağırışda ordu sıralarına qoşulmağa borclu idi.

❖ Kəndlilərin hüquqi cəhətdən rəiyyət, rəncbər, elat və nökərə bölünməsi ləğv edildi.

❖ Əvəzində sahibkar kəndlilərinə mülkədar tabelisi adı verildi.

## 1847-ci il "Kəndli əsasnamələri"

❖ 1847-ci il aprelin 20-də Şamaxı, Şuşa, Nuxa, Lənkəran, Bakı və Quba qəzalarında, dekabrın 28-də isə Qazax, Şəmşəddil və Borçalı nahiyələrində yaşayan kəndlilərə aid "Əsasnamələr"in əsas müddəaları aşağıdakılardan ibarət idi:

1. 15 yaşına çatmış hər bir kəndliyə 5 desyatindən az olmayan yararlı torpaq sahəsi verilməli idi.
2. Kəndli ona verilən torpaq sahəsinin əvəzində taxıl məhsulunun ondabir hissəsini, meyvə və tərəvəz məhsulunun isə üçdəbirini **malcəhət** adlanan məhsul vergisi şəklində sahibinə verməli idi.
3. Kəndli bəyin iş heyvanı, toxumu və əkinçilik alətləri ilə torpağı becərərdisə, məhsulun beşdəbirini torpaq sahibinə verməli idi.
4. Kəndli bəyin otlağından istifadə əvəzində xüsusi rüsum olan **çöpbaşı** ödəməli idi.
5. "Əsasnamələr"ə görə, bəyin ev işini görmək üçün 10 kəndli ailəsi bir kişi, 15 kəndli ailəsi isə bir qadın qulluqçusu verməli idi.

❖ Bəy ailəsində işləmək üçün qadın qulluqçusunun ayrılması kəndlilər arasında narazılıqla qarşılandığı üçün bu qayda tezliklə ləğv edildi.

❖ Hər bir kəndli ailəsi bəy təsərrüfatında işləmək üçün bir kişi ayırmalı idi və biyar 18 gündən çox ola bilməzdi.
❖ Kəndin bütün kəndliləri isə iki gün hamılıqla bəy təsərrüfatında **iməcliyə (əvrəzə)** çıxmalı idi.
❖ Sahibkar kəndliləri başqa feodalın yanına keçmək hüququnu saxlayır - "Əsasnamələr"ə görə, sahibkarlar öz kəndliləri üzərində polis və məhkəmə hüququ alırdılar.

**Dövlət kəndliləri**

❖ Rus işğalından sonra Azərbaycanda kəndlilər iki kateqoriyaya bölünürdülər: - sahibkar və dövlət.
❖ Dövlət kəndliləri sayca çoxluq təşkil edirdilər.
❖ Əvvəllər dövlət kəndlilərinin bir yerdən başqa yerə köçmək hüququ var idi. 1853-cü ildə onların bu hüququ ləğv edilsə də, köçmə prosesinin qarşısını ala bilmədi.
❖ 1852-ci ildən Şimali Azərbaycanda tətbiq edilən yeni vergi sisteminə görə, dövlət kəndliləri xəzinəyə vergini natura ilə deyil, pulla ödəməli idilər. Odur ki yeni vergi islahatları kəndlilərin vəziyyətini nisbətən ağırlaşdırdı.

## Cənubi Azərbaycan XIX əsrin 30-50-ci illərində
## Sosial-iqtisadi inkişaf

❖ XIX əsrin 30-50-ci illərində Cənubi Azərbaycanda təsərrüfatın əsasını əkinçilik və maldarlıq təşkil edirdi.

❖ Dəmyə topraqlarında, qismən də süni suvarma əsasında dənli bitkilərlə yanaşı, texniki bitkilər də becərilirdi.

❖ Şəhərlərin sosial-iqtisadi həyatında sənətkarlıq mühüm rol oynayırdı.

❖ Müharibədən sonra Avropa ölkələrindən hazır sənaye mallarının gətirilməsi toxuculuğa zərbə vursa da, xalçaçılıq, keçəçilik və s. istehsal sahələri xarici malların rəqabətinə məruz qalmadı.

❖ Cənubi Azərbaycan şəhərlərində manufaktura tipli müəssisələr inkişaf edirdi.

❖ Asiya ilə ticarət əlaqələrinin inkişafında Cənubi Azərbaycan şəhərləri (Təbriz, Marağa, Urmiya və s.) mühüm rol oynayırdı.

❖ Avropa şirkətləri Təbrizdə öz ticarət mərkəzlərini açmışdılar.

❖ 1833-1851-ci illərdə Təbrizdən xaricə göndərilən sənətkarlıq məhsullarının yarıya qədəri Rusiyaya ixrac edilmişdi.

## İctimai-siyasi quruluş

❖ XIX əsrin ortalarında Cənubi Azərbaycanda feodal münasibətləri mövcud idi. Ölkə əhalisinin əsas hissəsini kəndlilər təşkil edirdi.

❖ XIX əsrin ortalarında Cənubi Azərbaycanda torpaq üzərində tiyul, mülk, ilati (elat), vəqf, xırdamalik və s. torpaq mülkiyyət formaları var idi.

➢ Tiyul - mülki və hərbi xidmət müqabilində verilirdi, onu satmaq və ya bağışlamaq olmazdı.

➢ İlati - şah tərəfindən dövlət qarşısında hərbi xidmətə görə oturaq və yarımköçəri həyat sürən ayrı-ayrı tayfalara verilən torpaq mülkiyyət forması idi.

➢ Mülk -feodalların xüsusi mülkiyyətində olan torpaq sahibliyinə deyilirdi.

➢ Vəqf - dini idarələrə məxsus olan torpaq mülkiyyət forması idi.

➢ Xırdamalik - kəndlilərin cüzi hissəsinin malik olduqları xüsusi torpaqlara deyilirdi.

❖ Kəndlilər, bir qayda olaraq, istehsal şərtindən asılı olaraq becərdikləri məhsulun yarıdan çoxunu torpaq sahibinə renta və dövlətə vergi kimi verirdi. Şəhərlərin imtiyazlı təbəqəsini əyan və əşrəflər təşkil edirdi.

- ❖ Şəhər əhalisinin dövlət vergisinə cəlb olunan hissəsi tacir və sənətkarlar idi.
- ❖ Sənətkarların təşkilatları kimi, tacirlərin də ittifaqı var idi.
- ❖ Tacir ittifaqının başında məlik-üt-tüccar ləqəbini daşıyan ən varlı və nüfuzlu tacir dururdu.
- ❖ Gülüstan müqaviləsindən sonra Cənubi Azərbaycan İranın dörd əyalətindən birinə çevrildi.
- ❖ Cənubi Azərbaycanda Maku, Urmiya, Nəmin, Gərgər xanlıqları istisna olmaqla digər xanlıqlar ləğv edildi.
- ❖ Onların yerində vilayətlər yaradıldı.
- ❖ Xanlıqlar isə yalnız daxili müstəqilliyə malik idi.
- ❖ Hakimiyyətdə olan Qacar sülaləsinin nümayəndələri Cənubi Azərbaycana xüsusi yer verirdilər.
- ❖ Fətəli şahın dövründə (1797-1834) Cənubi Azərbaycan "vəliəhdneşin" (vəliəhd əyləşən yer) adlanırdı.

# Babilər hərəkatı - 1848-1852

❖ XIX əsrin ortalarında Cənubi Azərbaycanda mövcud olan siyasi və iqtisadi vəziyyət, dövlət məmurlarının özbaşınalığı xalqın, o cümlədən tacir və sənətkarların vəziyyətini daha da ağırlaşdırırdı.

❖ Bu kimi amillər ölkədə kütləvi həyəcanların başlanmasına gətirib çıxartdı.

❖ Babilər təriqəti zəminində genişlənən hərəkatın rəhbəri Seyid Əli Məhəmməd idi.

❖ Babın əsas ideyalarının əks olunduğu "Bəyan" adlı əsərdə tacir, sənətkar və kəndlilərin arzuları əks olunmuşdu.

❖ Bu hərəkat:

1. feodallara,
2. ali ruhanilərə və
3. xarici kapitala qarşı çevrilmişdi.

❖ Baba görə, İranda feodal və xarici kapitalın zülmünü aradan qaldırmaq üçün imam Mehdinin zühur etməsinin vaxtı çatmışdı.

❖ O özünü imam Mehdinin vasitəçisi elan etmişdi.

❖ Bab təlimində qadınların hüquq bərabərliyi elan edilmişdi.

❖ Məhz bu ideya çoxlu qadının bab təliminə qoşulmasına səbəb oldu.

❖ Qəzvin müctəhidinin qızı Zərrintac bu hərəkatın fəallarından idi.

❖ Ardıcılları onu Qürrətüleyn (gözün nuru), xalq isə Tahirə (təmizlərin təmizi) adlandırırdı.

❖ 1852-ci ildə o, hakim qüvvələr tərəfindən öldürüldü.

❖ 1848-1852-cl illəri əhatə edən Babilər hərəkatının ən coşqun dövrü Cənubi Azərbaycanda - **Zəncan**da idi.

❖ 1850-ci ildə üsyançılar şəhər qalasını tutdular.

❖ Üsyanda babilərin ailə üzvləri də iştirak edirdi.

❖ Molla Məhəmmədin başçılıq etdiyi Zəncan üsyanı dekabr ayında yatırıldı.

❖ Babilər hərəkatı İranda feodalizmdən kapitalizmə keçid dövrü ərəfəsində baş verən **ilk silahlı çıxış** idi.

## XIX əsrin birinci yarısında Şimali Azərbaycan mədəniyyəti

❖ XIX əsrin birinci yarısında ağır müstəmləkə rejiminə baxmayaraq, mədəniyyətin ayrı-ayrı sahələrində müəyyən irəliləyişlər özünü göstərirdi.
❖ Çarizmin maarif sahəsində siyasəti Azərbaycanda əvvəlki tarixi dövrlərdə məktəb və mədrəsələrin həyatında olan nailiyyətlərin inkar edilməsinə, ruslaşdırına yolu ilə çarizmə sədaqətli məmurlar hazırlanmasına yönəlmişdi.
❖ 1829-cu il nizamnaməsinə görə, Azərbaycanın müxtəlif şəhərlərində **qəza məktəbləri** açılmalı idi.
❖ 1830-cu ildə ilk qəza məktəbi Şuşada açılmışdı.
❖ Sonrakı illərdə Bakı, Nuxa, Gəncə, Naxçıvan və Şamaxıda qəza məktəbləri açıldı.
❖ Rusiyanın Şimali Azərbaycanda təşkil etdiyi dövlət məktəblərinin açılmasında əsas məqsəd müxtəlif idarələrdə işləmək üçün yerli əhalidən məmurlar hazırlamaq idi.

❖1853-cü ildə yeni nizamnamə qəbul edildi.

❖ 1854-cü ildə Quba və Ordubadda, 1856-cı ildə Lənkəranda birsinifli ibtidai məktəblər açıldı.

❖ İlk vaxtlar bu məktəblərdə əsasən rus məmurlarının uşaqları oxuyurdu.

❖ 1854-cü ildə Şamaxıda dördsinifli məktəb təsis edildi.

❖ İlk dərsliklərin yazılmasına XIX əsrin 30-cu illərinin sonunda başlandı.

❖ Həmin dərsliklərdən ən mükəmməli Mirzə Kazımbəyin "Türk-tatar dilinin qrammatikası" idi.

❖ Elmi dəyərinə görə bu dərsliyə məşhur Demidov mükafatı verilmişdi.

❖ Dünyəvi müsəlman məktəbləri haqqında ilk əsaslı fikir A.Bakıxanova məxsusdur.

❖ Qafqazın baş hakimi baron Rozen A.A.Bakıxanovun 1832-ci ildə hazırladığı müsəlman məktəblərinin təsis edilməsi haqqında layihəsinə diqqət yetirmədi.

❖ İbtidai təhsil yenə də məktəblərdə (mollaxanalarda) cəmlənmişdi.

❖ 30-cu illərdə Bakıda qız məktəbləri də fəaliyyət göstərirdi.

❖ Azərbaycanda orta ruhani məktəbləri - mədrəsələrlə yanaşı, xüsusi fərdi məktəblər də fəaliyyət göstərirdi.

❖ Müsəlman məktəbləri dövlət məktəbləri kimi Qafqaz təhsil dairəsinə deyil, canişinliyin baş rəisinə tabe idi.

❖ 1847-1849-cu illərdə Tiflis və Şamaxıda şiə və sünni müsəlman məktəbləri açılmışdı.

❖ Məqsəd əhali arasına dini təfriqə salmaq idi.

❖Həmin məktəblər üzərinə xüsusi nəzarət qoyulmuşdu.

❖ Lakin bu məktəblərə şagirdlərin axını hökuməti qane etmədiyinə görə onların fəaliyyəti tədricən dayandırıldı.

❖ Yalnız Tiflis müsəlman məktəbi fəaliyyətini davam etdirirdi.

❖ Ana dilində ilk dərsliklər və dərs vəsaitləri hazırlanırdı.

❖ XIX əsrin birinci yarısında Azərbaycan elminin inkişafında müəyyən nailiyyətlər əldə edilmişdi.

❖ Buna misal olaraq tarixçilərdən Kərim ağa Şəkixanovu ("Şəki xanlarının tarixi"), Mirzə Adıgözəl bəyi ("Qarabağnamə"), Mirzə Camalı ("Qarabağ tarixi"), İsgəndər bəy Hacınskini ("Qubalı Fətəli xanın həyatı"), Abbasqulu ağa Bakıxanovu ("Gülüstani İrəm") göstərmək olar.

❖ A.Bakıxanovun "Gülüstani İrəm" əsərində (1841) Azərbaycan tarixi ilk dəfə bir tam halında nəzərdən keçirilir və tarix dövrləşdirilirdi.

❖ Bu əsər ilk dəfə 1923-cü ildə türkcə, 1926-cı ildə isə rus dilində nəşr edilmişdir.

❖ A.Bakıxanov və M.Ş.Vazeh Azərbaycanın fəlsəfi fikir tarixində böyük rol oynamışlar.

❖ Azərbaycanın və digər Şərq ölkələrinin tarixini, ədəbiyyatı, dili və məişətini öyrənən elm Qərbi Avropada **şərqşünaslıq** adı almışdı.

❖ Bu dövrdə Azərbaycan şərqşünaslarından Mirzə Cəfər Topçubaşov və Mirzə Kazımbəy daha çox şöhrət qazanmışdılar.

✓ Peterburq Universitetinin İran ədəbiyyatı kafedrasının müdiri olmuş M.C.Topçubaşov həm də Asiya departamenti nəzdindəki Şərq Dilləri İnstitutunun professoru idi.

✓ O, 15 il (1852-1867) Rusiya Arxeologiya Cəmiyyətinin Şərq Sikkəşünaslıq şöbəsinə rəhbərlik etmiş, Şərq tarixi və ədəbiyyatına dair elmi əsərlər yazmışdır.

✓ "Krım sonataları" poemasını fars dilinə tərcümə etmiş M.C.Topçubaşovun adına ölümündən sonra təsis edilmiş mükafat hər il müsabiqə əsasında yaxşı əsər yazmış universitet məzunlarına və tələbələrə verilirdi.

✓ O, Böyük Britaniya Kral Cəmiyyətinin həqiqi üzvü seçilmişdi.

❖ **Mirzə Kazımbəy:**

✓ Kazan Universitetində professor elmi adı almış, kafedra müdiri və dekan vəzifəsinədək yüksəlmişdi;

✓ 3 Avropa dilini (ingilis, alman, fransız) mükəmməl bilirdi;

✓ 1849-cu ildən Peterburq Universitetində fəaliyyət göstərmiş və orada şərqşünaslıq fakültəsinin açılmasına (1853) nail olmuş, sonra onun ilk dekanı seçilmişdi;

✓ tarix, filologiya, dilçilik, hüquq və başqa sahələrə aid yüzdən çox elmi əsər yazmışdır;

✓ Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Böyük Britaniya Kral Cəmiyyətinin həqiqi üzvü seçilmişdi.

❖ Azərbaycan türkcəsində ilk qəzet XIX əsrin birinci yarısında çap olunmağa başlamışdı:

1. 1832-ci ildə "Tiflisskiye vedomosti" qəzetinin "Tatar xəbərləri" adlı əlavəsi çıxmışdı;

2. 1841-1846-cı illərdə "Zaqafqazski vestnik"in Azərbaycan türkcəsiridə "Qafqazın bu tərəfinin əxbarı" nəşr olunmuşdu.

❖ Bu dövrdə A.Bakıxanov, M.Ş.Vazeh, Q.B.Zakir və İ.B.Qutqaşınlının Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olmuşdu.

❖ Azərbaycanda təsviri, dekorativ və tətbiqi incəsənət də inkişaf etmişdi.

❖ Mirzə Qədim İrəvani (1825-1879) təsviri incəsənətin,

❖ Məhəmməd Rza İrəvani miniatür rəssamlığının,

❖ Qarabağlı Qənbər dekorativ incəsənətin görkəmli nümayəndələri idilər.

## AZƏRBAYCAN XIX ƏSRİN İKİNCİ YARISINDA

**İctimai-iqtisadi vəziyyət: sənayedə kapitalizmin yaranması.**

❖ XIX əsrin ikinci yarısında Rusiya imperiyasının tərkibində olan Şimali Azərbaycan Ümumrusiya bazarına qoşulurdu.

❖ Burada kapitalist münasibətlərinin inkişafı 60-cı illərə təsadüf edir.

❖ Bəhs olunan dövrdə neft istehsalına mənfi təsir edən əsas amillər bunlar idi:

1. iltizam sistemi,
2. kəndlilərin məcburi əməyindən istifadə,
3. neft və neft məhsullarına tələbatın azlığı və s.

❖ Bakı, Şəki, Şamaxı şəhərlərində manufaktura tipli müəssisələrdə, Naxçıvan düz mədənlərində, Salyan balıq vətəgələrində, Zəylik zəy zavodunda bu və ya digər formada muzdlu əmək tətbiq olunurdu.

❖ Hökumət 1864-cü ildə Balaxanı neft mədənlərində quyulara təhkim edilmiş kəndlilərin (sonralar Naxçıvan duz mədənlərində, Zəylik zəy zavodunda və s.) icbari əməyini ləğv etdi.

❖ Bu tədbirlər nəticəsində dağ-mədən sənayesində azad muzdlu əməkdən istifadə olunmasına başlandı.

❖ XIX əsrin 60-cı illərindən başlayaraq Rusiyadakı müəssisələrdə neftdən sənaye miqyasında istifadə edilməsi Şimali Azərbaycanın neft və neft məhsullarına tələbatı artırdı.

❖ Neft hasilatına tələbatın artması yeni neft yataqlarının istismar edilməsinə və neftçıxarmada texniki təkmilləşdirmələr aparılmasına səbəb oldu.

❖ 1859-cu ildə Suraxanıda ağ neft istehsalına başlandı.

❖ 1861-ci ildə Pirallahı adasında parafin zavodu işə salındı.

❖ 1863-cü ildə Bakıda ikinci ağ neft zavodu inşa edildi.

❖ 1865-cl ildə Gədəbəydə "Simens qardaşları" səhmdar cəmiyyətinin misəritmə zavodu istifadəyə verildi.

❖ Bu zavod bəhs olunan dövrdə Rusiyada ən iri misəritmə müəssisəsi idi.

❖ Çar hökuməti Gədəbəydə 10 min desyatindən çox meşə sahəsini posessiya (posessiya - müəyyən şəxslərə şərti mülkiyyət hüququnun verilməsi) əsasında "Simens qardaşları" şirkətinə istifadəyə verdi.

- 1865-ci ildə Simens qardaşları Daşkəsəndəki kobalt yataqlarını istismar etmək üçün zavod tikdilər.
- Mərkəzi Rusiyada ipək toxuculuğu sənayesinin xam ipəyə olan ehtiyacını ödəmək məqsədilə 1861-ci ildə Nuxada ipək fabrikinin əsası qoyuldu.
- 1862-ci ildə Londonda keçirilən ümumdünya sərgisində bu fabrikin məhsulları keyfiyyətinə görə medala layiq görülmüşdü.

## Kənddə feodal münasibətlərinin sarsılması və kənd cəmiyyətlərinin yaradılması

❖ XIX əsrin 60-cı illərində kəndin getdikcə daha çox əmtəə-pul münasibətlərinə cəlb olunması satlıq məhsulların istehsalını çoxaldır, keyfiyyətinin yüksəldilməsinə diqqəti artırırdı.

❖ Hökumət Şimali Azərbaycan kəndliləri ilə torpaq sahibləri arasında qarşılıqlı münasibətləri qaydaya salmaq üçün 1865-ci ildə "Kənd cəmiyyətləri haqqında" qanun verdi.

❖ Bu qanuna əsasən :

❖ vahid kənd idarəsi yaradıldı.

✓ Kənd cəmiyyətini kəndxuda və onun köməkçiləri idarə etməli idi.

✓ Kənd idarəsinə 25 yaşından yuxarı olan kəndlilər 3 il müddətinə seçilir,

✓ onları qubernator təsdiq edirdi.

❖ Kənd cəmiyyətinin ali orqanı kəndlilərin yığıncağı idi,

❖ Kənd yığınçağının:

1) kənd məmurlarını seçmək,
2) onları kənd cəmiyyəti üzvlüyündən çıxarmaq,
3) ictimai torpaqlar haqqında sərəncam vermək,
4) dövlət vergilərini qaydaya salmaq hüquqları var idi.

❖ Mühüm məsələni həll etmək üçün bütün əhalinin səslərinin üçdəiki hissəsi tələb olunurdu.

❖ Əslində, kənd idarələri qəza və quberniya idarələrinə tabe olub, heç bir müstəqilliyə malik deyildi.

❖ Qanuna görə, bəylər kənddə inzibati-məhkəmə işlərindən uzaqlaşdırıldılar.

## 1870-ci il 14 may islahatı.

❖ Şimali Azərbaycanda kəndlilər rəsmən təhkimli deyildilər.

❖ Lakin hökumət Şimali Azərbaycan iqtisadiyyatını müstəmləkə sisteminə uyğunlaşdırmaq üçün Cənubi Qafqazda da kəndli islahatı keçirməyə məcbur oldu.

❖ 1870-ci il mayın 14-də imperator **II Aleksandr**ın bu məqsədlə imzaladığı "Əsasnamə"də sahibkar kəndlilərinin:

1. feodal asılılığının ləğv edilməsi,
2. torpaq və vergi məsələlərinə toxunulurdu.

❖ Onun əsas müddəaları:

✓ Şimali Azərbaycanda sahibkar kəndliləri feodal asılılığından azad edilirdilər.

✓ 1847-ci il "Əsasnamə"sində olduğu kimi, 15 yaşına çatmış kişilərə 5 desyatin əkinəyararlı torpaq verilirdi.

✓ 1847-ci il "Əsasnamə"sindən fərqli olaraq kəndlinin 5 desyatindən artıq torpaq sahəsi mülkədarın xeyrinə kəsib götürülür, torpağı 5 desyatindən az olan kəndliyə əlavə torpaq sahəsi verilməsi nəzərdə tutulmurdu.

❖ Torpaq sahiblərinə bütün torpağın üçdəbir hissəsini öz əlində saxlamaq hüququ verilirdi.

❖ "Əsasnamə"də kəndliyə pay torpağını satın alıb, mülkiyyətinə çevirmək hüququ verilsə də, Rusiyadan fərqli olaraq kəndliyə torpağı almaq üçün vəsait verilmir, həm də o, pay torpağını satın almağa məcbur edilmirdi və torpağın satış qiyməti də Rusiyadakına nisbətən baha idi.

❖ Məhdud cəhətlərinə baxmayaraq kəndlilərə torpaq əldə etmək hüququnun verilməsi burjua xarakteri daşıyırdı.

❖ "Əsasnamə"yə görə, kəndli hüquqi cəhətdən şəxsən azad olub, sərbəst şəkildə istədiyi yerə köçə bilərdi.

❖ O, sahibkardan yalnız iqtisadi cəhətdən asılı idi,

❖ Kəndlilər əvvəllər olduğu kimi, yenə də öz məhsulunun ondabir hissəsini malcəhət kimi torpaq sahibinə verirdi.

❖ Əvvəllər meşələrdən pulsuz istifadə edildiyi halda, indi kəndlilər buna görə pul ödəməli idilər.

❖"Əsasnamə"yə görə, biyar ləğv olunurdu.

❖ Kəndlilərin əksəriyyətini təşkil edən dövlət kəndliləri həmin islahatdan kənarda qaldı.

❖ Bu islahat Quba qəzasında 1877-ci ildə Zaqatala dairəsində isə çox gec - 1913-cü ildə keçirildi.

❖ 1870-ci ilin 14 may islahatı Şimali Azərbaycanda feodal-asılı münasibətlərinə güclü zərbə endirərək kapitalist münasibətlərinin sonrakı inkişafına şərait yaratdı.

## Məhkəmə islahatı

❖ Şimali Azərbaycanda **məhkəmə islahatı** 1866-cı ildə keçirildi.

❖ İslahata əsasən:

➢ Silki məhkəmələr ləğv edildi və vahid məhkəmələr yaradıldı.

❖ Qəzalarda dairə məhkəmələri və barışıq şöbələri təşkil olundu.

❖ Dairə məhkəmələrini çarın təsdiqinə canişin təqdim edirdi.

❖ Bu məhkəmələr barışıq məhkəmələrinin qərarlarına nəzarət edir, onların səlahiyyətində olmayan bütün mülki və cinayət işlərini həll edirdi.

❖ Məhkəmə iclasları açıq keçirilirdi və s.

❖ Məhkəmə işlahatının müsbət cəhətləri ilə yanaşı, məhdud cəhətləri də var idi.

❖ Belə ki, Rusiyada hakimlər seçildiyi halda, Azərbaycanda onlar yalnız ruslardan təyin olunur, məhkəmə iclasları rus dilində aparılırdı.

❖ Məhkəmə hakimləri özbaşınalıq edir və rüşvətxorluqla məşğul olurdular.

## Şəhər islahatı

❖Şimali Azərbaycanda **şəhər islahatı** Rusiyadan 8 il sonra, 1878-ci ildə həyata keçirildi.

❖ İslahata uyğun olaraq şəhər özünüidarəsi ilk dəfə Bakıda tətbiq olundu.

❖ "Əsasnamə"yə görə:

1) şəhər idarələri və dumalara seçkilərdə silki məhdudiyyət ləğv olunsa da, əmlak senzi tətbiq olunurdu.
2) Şəhərdə yaşayıb vergi verən əhalinin hər biri seçkilərdə iştirak edə bilərdi.
3) 25 yaşına çatmayanlar və qadınlar bələdiyyə seçkilərində iştirak edə bilməzdilər.
4) Şəhər dumalarının kiçik təsərrüfat işləri ilə məşğul olmaq hüququ var idi.

❖ Dumanın fəaliyyətinə qubernator nəzarət edirdi.

❖ Qafqazda bütün ali hakimiyyət canişinin əlində idi.

❖ Quberniyalarda bütün mülki və hərbi hakimiyyət qubernatora məxsus idi.

❖Qəzalar qəza rəisləri tərəfindən idarə olunurdu.

# İnzibati islahat

- ❖Cənubi Qafqazın inzibati quruluşunda Rusiyadakı islahatlara uyğun müəyyən dəyişikliklər edildi:
- ❖ 1959-cu ildə Şamaxıda olan zəlzələ nəticəsində şəhər tamamilə dağıldığından quberniyanın mərkəzi Bakıya köçürüldü və **Bakı quberniyası** adlandı.
- ❖ 1960-cı ildə Dərbənd quberniyası ləğv edildi.
- ❖ Bununla əlaqədar Quba qəzası Bakı quberniyasının tərkibinə qatıldı.
- ❖ Sonralar yaradılmış Cavad və Göyçay qəzaları da bu quberniyanın tərkibində idi.
- ❖ 1868-ci ildə Bakı, Tiflis və İrəvan quberniyalarından alınmış ərazilər hesabına **Yelizavetpol quberniyası** yaradıldı.
- ❖ Ərəş, Cəbrayıl, Cavanşir qəzaları bu quberniyanın tərkibinə daxil edildi.
- ❖ Şərur-Dərəyələz və Naxçıvan qəzaları İrəvan quberniyasına daxil idi.
- ❖ 1883-cü ildə Qafqaz canişinliyi ləğv edildi.
- ❖ Qafqazın idarə edilməsi **Baş hərbi rəisə** tapşırıldı.

## XIX əsrin 70-90-cı illərində kənd təsərrüfatı

❖ Əvvəlki illərdə olduğu kimi, bu dövrdə də kəndlilər iki qrupa - dövlət və sahibkar kəndlilərinə bölünürdülər.

❖ Əsrin sonuna yaxın bütün kənd əhalisinin əksəriyyətini dövlət kəndliləri təşkil edirdi.

❖ Kəndlilər arasında aztorpaqlılıq səciyyəvi hal daşıyırdı.

❖ XIX əsrin 80-90-cı illərində ictimai təbəqələşmə nəticəsində qolçomaqlar (varlı kəndlilər) meydana gəldi.

❖ Azərbaycanda kəndlilər aztorpaqlılıq ilə yanaşı, suyun azlığından da əziyyət çəkirdilər.

❖ Çünki süni suvarma olmadan məhsul becərmək mümkün deyildi. Suvarma vasitəsi kimi arxlardan, kəhrizlərdən istifadə edilirdi. 1890-cı il dekabrın 3-də torpaqların suvarılması işinin hüquqi əsaslarını və qayda-qanun yaratmaq məqsədilə "Sudan istifadə haqqında əsasnamə" qəbul olundu.

❖ Əsasnaməyə görə, Qafqaz su müfəttişliyi yaradıldı.

❖ Suvarma suyunun bölüşdürülməsini təşkil edən inzibati şəxslər mirab və cuvar adlanırdılar.

❖ Keçirilən islahatlar nəticəsində kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafı sürətləndi.

❖ Kənd təsərrüfatında təkmil alətlər tətbiq edildi, texniki bitkilərin əkinləri genişləndirildi, bəzi sahələrdə məhsul istehsalının ixtisaslaşması və ş. başlandı.

❖ Əkinəyararlı torpaqların üçdəiki hissəsinin çoxunda dənli bitkilər əkilirdi.

❖ Əvvəllər olduğu kimi, qızılboya, barama, sənaye pambıqçılığı, tütünçülük, biyan kökü istehsalına da xüsusi diqqət verilirdi.

❖ 1850-ci ildə Tiflisdə yaradılmış **"Qafqaz kənd təsərrüfatı cəmiyyəti"** kənd təsərrüfatında yeni texnikanın tətbiqində mühüm rol oynadı.

❖ Cənubi Qafqaza kənd təsərrüfatı alətləri və maşınları Batum, Poti və Bakı limanları vasitəsilə gətirilirdi.

❖ Yeni kənd təsərrüfatı texnikasından əsasən varlı kəndlilər və Rusiyadan köçüb gələn kəndlilər istifadə edirdilər

❖ Azərbaycanda kənd təsərrüfatına dair maarifçiliyin yayılmasında Həsən bəy Zərdabinin böyük rolu oldu.

- 70-90-cı illərdə kənd təsərrüfatının bütün sahələrində muzdlu əmək tətbiq edilirdi.
- Qonşu ölkələrdən Azərbaycana iş dalınca gələn **kəsbkarlar** da muzdla işləyirdilər.
- Kapitalizmin inkişafı nəticəsində torpaq alğı-satqı obyektinə çevrilirdi.
- İcarəyə götürülmüş torpaqlarda muzdlu əməyin tətbiqi artırdı.
- Dövlət kəndlilərindən pulla "həyət vergisi" adlanan torpaq töycüsü alınırdı.
- Sahibkar kəndliləri əvvəlki kimi malcəhət (torpaqdan istifadəyə görə ondabir) və bəhrə (suvarma suyundan istifadə edildiyi üçün) vergisi verirdilər.
- 1887-ci ildən başlayaraq Azərbaycan kəndliləri hərbi vergi adlanan mükəlləfiyyət də daşımağa başladılar.
- Xristian olmadıqlarına görə orduya çağırılmayan azərbaycanlılar 3 illik orta qazancı nəzərə alınmaqla müəyyən olunmuş həcmdə hərbi vergi verməli idilər.

❖ Köçürmə siyasəti 1850-1870-ci illərdə də davam etdirildi.

❖ Əsrin sonunda rus gəlmələri ən yararlı torpaqların daxil edildiyi köçürülmə fondu hesabına Azərbaycanda 41 kənd saldılar.

❖ Bunlardan 25-i Bakı quberniyasında yerləşirdi.

❖ Ruslar əsasən Şamaxı, Lənkəran, Qazax qəzalarında məskunlaşırdılar.

❖ Hər rus kəndli həyətinə orta hesabla 37 desyatin pay torpağı düşdüyü halda, hər bir azərbaycanlının təsərrüfatında bundan 15 dəfə az torpaq sahəsi var idi.

❖ 1880-ci illərdən etibarən təbəqələşmənin güclənməsi nəticəsində icmalar dağılır, torpaqlar qolçomaqların, şirkət və səhmdar cəmiyyətlərinin əlinə keçirdi.

## Neft sənayesinin inkişafı.

❖ 1860-70-ci illərdə iltizam sistemi neft sənayesinin inkişafına bir növ buxov olmuşdu.

❖ Duru yanacağa tələbatın artması hökuməti iltizam sistemini ləğv etməyə məcbur etdi. 1872-ci ilin fevralında iltizam sistemi ləğv olundu.

❖ Qanuna əsasən, neft yataqları ayrı-ayrı şəxslərə birdəfəlik satıla bilərdi. 1872-ci ilin dekabrında ilk dəfə neft yataqları açıq satışa qoyuldu.

❖ İlk mərhələdə neft sənayesi böyük kapital qoyuluşu tələb edirdi. Ona görə də neft mədənləri və tərkibində neft olan torpaqlar əsasən rus və xarici kapitalın əlinə keçirdi.

❖ 1879-cu ildə İsveç təbəəsi Nobel qardaşları "Nobel qardaşları" şirkətinin əsasını qoydular.

❖ 1880-ci illərdə Rotşildin (Fransız),

❖ 90-cı illərdə Vişaunun (İngilis) timsalında fransız və ingilis kapitalı Bakıya nüfuz etdi.

❖ Lakin neftli torpaqlara sahib olanlar arasında Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov kimi azərbaycanlılar da var idi.

❖ İltizam sisteminin ləğvi, xarici kapital axını neft hasilatının və emalı texnikasının yaxşılaşmasına, neft məhsullarının daşınma vasitələrinin təkmilləşdirilməsinə səbəb oldu.

❖ Hələ 1871-ci ildə Balaxanıda **buruqla ilk neft quyusu** qazılıb istifadəyə verilmişdi.

❖ 1873-cü ildə Balaxanıda **ilk neft fontan vurdu**.

❖ 1873-cü ildə quyuların qazılmasında **ilk dəfə buxar mühərrik**lərindən istifadə olundu.

❖ 1878-ci ildə mədənləri neftayırma müəssisələri ilə birləşdirən buxar mühərrikli nasoslarla təchiz olunmuş **ilk neft kəməri** işə salındı.

❖ 1879-cu ildə "Nobel qardaşları" şirkəti tərəfindən mədənlər arasında neft və sərnişin daşımaq üçün **ilk darxətli dəmir yolu** çəkildi.

❖ 1879-cu ildə İsveçdə hazırlanmış **dünyada ilk neft tankeri** ZOROASTR (Zərdüşt) Bakı ilə Həştərxan arasında hərəkətə başladı.

❖ XIX əsrlə XX əsrin qovuşuğunda neft hasilatı və neft çıxarılmasına görə **Bakı dünyada birinci yerə** çıxdı.

❖ Neft məhsullarına marağın artması 1873-cü ildə **"Qara şəhər"** adlanan zavodlar rayonunun yaranmasına səbəb oldu.

❖ Bakı şəhəri həm neftçıxarma, həm də neft emalı mərkəzinə çevrildi.

❖ 1884-cü ildə Bakıda kapitalistlərin xüsusi təşkilatı - **Neft sənayeçiləri qurultayı** təşkil edildi.

❖ Təşkilatın başında Qurultay Şurası dururdu.

❖ 1893-cü ildə neft sənayeçilərinin Peterburqda keçirilən müşavirəsində "Bakı ağ neft zavodçuları ittifaqı" adlı inhisar birliyi yaradıldı. İstehsal olunan neft məhsullarının 98 faizinə bu inhisar birliyi nəzarət edirdi.

❖ Lakin bu birlik daxili didişmələr üzündən 1897-ci ildə dağıldı.

❖ Neft emalı və neft hasilatı mexaniki istehsal, kükürd, kolçedan, kükürd turşusu, soda, gəmiçilik və neftlə bağlı olan bu kimi istehsal sahələrinin inkişafına ciddi təsir göstərdi.

❖ 1890-cı ildə H.Z.Tağıyev **"Kaspi" gəmiçilik şirkətini”** yaratdı.

❖ 1894-cü ildə Gəncə qəzasında **"Naftalan"** neft sənayesi və ticarət şirkəti təsis edildi.

❖ 1897-ci ildə H.Z.Tağıyev başqa sənaye sahələrinə kapital qoymaq üçün özünün neft mədənlərini müəssisələri ilə birlikdə ingilis kapitalistlərinə 5 milyon manata satdı və iqtisadiyyatın yeni sahələrinə - toxuculuq sənayesinə, gəmiçiliyə və balıqçılığa xeyli kapital qoydu.

❖ O, eyni zamanda ingilislərə satdığı müəssisələr əsasında yaradılmış "Oleum" səhmdar cəmiyyətinin milyon manatlıq səhmini öz əlində saxladı, bu cəmiyyətin icraçı direktorlarından birinə çevrildi.

❖ 1900-cü ildə H.Z.Tağıyevin toxuculuq fabrikinin işə salınması Azərbaycanın müstəmləkə iqtisadiyyatına xas olan birtərəfli inktşaf meylini aradan qaldırmaq yolunda ilk addım oldu.

## Sənayenin başqa sahələri

❖ Bakıda mexaniki zavodlar, gəmi təmiri emalatxanaları, buxar mühərrikləri ilə hərəkətə gətirilən dəyirmanlar, tütün fabrikləri, yeyinti, tikinti materialları istehsal edən müəssisələr fəaliyyət göstərirdi.

❖ Azərbaycanda əlvan **metallurgiya sənayesi** inkişaf edirdi.

❖ Bu sənaye sahəsi rus və alman kapitalı əsasında meydana gəlmişdi.

❖ 1883-cü ildə **Qalakənd missaflaşdırma** zavodu inşa edilmişdi.

❖ Gəncə, Gədəbəy və Cavanşirdəki mədənlərdən mis filizi; Daşkəsəndən dəmir, kobalt filizi; Cavanşir və Naxçıvandan gümüş, qurğuşun filizi çıxarılırdı.

❖ Zəylik kəndi yaxınlığında az miqdarda zəy əldə edilirdi.

❖ 1880-90-cı illərdə Gədəbəy misəritmə müəssisələri ən iri kapitalist müəssisəsinə çevrildi.

❖ Rusiya ipəktoxuma sənayesinin tələbatına uyğun olaraq Azərbaycanda ipək emalı müəssisələrinin sayı çoxalmışdı.

❖ İpək emalı sənayesi əsasən Nuxa, Zaqatala, Qarabağ və Naxçıvanda yayılmışdı.

❖ Nuxa şəhəri **"Qafqaz Lionu"** adlandırılırdı. Azərbaycanın xam ipəyi Moskva, Lodz, Varşava, Milan, Marsel, Lion və s. yerlərə ixrac olunurdu.

Azərbaycanda pambıqçılığın inkişafı ilə əlaqədar pambıqtəmizləmə zavodları yaranmaqda idi.

❖ İlk **pambıqtəmizləmə zavodu** 1882-ci ildə Naxçıvanda inşa olundu.

❖ Yeyinti sənayesində **balıq emalı** mühüm yer tuturdu. XIX əsrin 90-cı illərindən başlayaraq dənizdə balıq ovlanmasına başlandı.
❖ 1880-1890-cı illərdə 10-12 iri balıq sənayeçisindən yalnız dördü azərbaycanlı idi.
❖ Xəzər dənizi nərə balığı növlərinin zənginliyinə görə dünyada birinci yeri tuturdu. Azərbaycanın balıq və balıq məhsulları Rusiyaya, Almaniyaya, Avstriyaya, Fransaya, Polşaya, Amerikaya ixrac olunurdu.
❖ Şərab, spirt, konyak, tütün, duz, biyan kökü emalı istehsalı da inkişaf edirdi.
❖ Rusiyada biyan kökü emalının mərkəzi Azərbaycan idi. Ləkidə, Ucarda, Gəncədə və Kürdəmirdə biyan emalı zavodları tikilmişdi:
❖ 1880-ci illərdə Ağdamda və Gəncədə ilk araq-konyak zavodları tikilmiş, Bakı və Nuxada tütün fabrikləri inşa edilmişdi. Naxçıvanda daşduz, Bakı və Cavad qəzalarında isə şor-narın duz çıxarılırdı.
❖ XIX əsrin sonunda Bakı şəhərində tikinti-memarlıq işlərinin artması Abşeronun daş karxanalarında daş istehsalım çoxaltdı.
❖ Bakı və digər şəhərlərdə daşdan tikilən binaların sayı ildən-ilə artırdı.
❖ İqtisadiyyatın inkişafı nəqliyyat vasitələrinin də irəliləyişinə səbəb oldu. Xəzər dənizində dünyada ilk dəfə neftdaşıyan gəmilər üzürdü.

❖ 1883-cü ildə Cənubi Qafqazda **Bakı—Tiflis dəmir yolu** işə salındı.
❖ 1900-cü ildə Biləcəri stansiyasını Petrovsk (Mahaçqala) ilə birləşdirən dəmir yolu xətti istifadəyə verildi.
❖Bununla Bakı bilavasitə **Ümumrusiya bazarına çıxmaq imkanı** əldə etdi.
❖ XIX əsrin sonunda dəmir yolu stansiyalarına yaxın olan (Ağstafa, Yevlax, Ləki, Ucar, Kürdəmir, Hacıqabul) sənaye və ticarət mərkəzlərinin rolu artır, dəmir yolundan uzaqda olan (Nuxa, Şamaxı, Şuşa) ticarət mərkəzlərinin əhəmiyyəti isə azalırdı.
❖ XIX əsrin 80-90-cı illərində (Ucar-Göyçay, Yevlax-Nuxa-Zaqatala, Gəncə-Hacıkənd, Ləki-Ağdaş) dəmir yolu stansiyalarından qəza mərkəzlərinə şose yolları çəkildi.
❖ Həmin əsrin 60-cı illərindən etibarən Azərbaycan şəhərləri arasında teleqraf və telefon xətləri çəkilişi sürətləndi.
➢ 1864-cü ildə Tiflis-İrəvan-Naxçıvan-Culfa,
➢ 1868-ci ildə Bakı-Tiflis teleqraf xətləri çəkildi.
❖ Bakı şəhərini əhatə edən ilk mərkəzləşdirilmiş telefon stansiyası 1886-cı ildə işə salındı.

## Sənətkarlıq, ticarət

❖ XIX əsrin ikinci yarısında iqtisadiyyatın inkişafı Azərbaycanda şəhərlərin sayının və əhalisinin artmasına gətirib çıxardı.

❖ Şəhər əhalisinin artım sürətinə görə Bakı Rusiya imperiyası və Avropa ölkələrini ötüb-keçdi.

❖ Əsrin sonunda Bakı əhalisinin cəmi 40 faizini azərbaycanlılar təşkil edirdi. Şəhərdə iş qabiliyyətli əhalinin 60 faizini fəhlələr təşkil edirdi.

❖ Bakıdan sonra əhalinin sayına görə Gəncə şəhəri gəlirdi, ticarət və sənayenin inkişafına görə isə ikinci yeri Nuxa şəhəri tuturdu.

❖ 1892-ci ildə təsdiq olunan yeni şəhər "Əsasnaməsi" Bakı ilə yanaşı, Gəncə şəhərinə də şamil edildi. Şəhərlər inkişaf etdikcə onların xarici görünüşləri də dəyişirdi. İki və üçmərtəbəli evlər tikilir, bağlar salınırdı.

❖ 1859-cu ildə Bakıda "Qubernator bağı", 1882-1883-cü illərdə "Nobel bağı" salındı.

❖ 1889-cu ildə Bakıda konka (atlardan qoşqu vasitəsi kimi istifadə olunan dəmir yolu) açıldı.

❖ Şimali Azərbaycanda əhalinin məişət və təsərrüfat ehtiyacları sənaye məhsulları ilə hələ də tam təmin olunmadığından Azərbaycanın sənaye-ticarət mərkəzlərində (Şamaxı, Şuşa, Quba, Gəncə və s.) bir sıra kustar və peşə növləri fəaliyyət göstərməkdə davam edirdi.

❖ Sənətkarlığın bəzi sahələri nisbətən ucuz fabrik-zavod məhsullarının rəqabəti üzündən tənəzzülə uğrasa da, tikməçilik, xalçaçılıq, dulusçuluq kimi sənaye məhsullarına istər daxili, istərsə də xarici bazarlarda tələbat çox idi. Bunun üçün həmin məhsullar nəinki fabrik-zavod məhsullarının rəqabətinə tab gətirir, hətta çiçəklənmə dövrü keçirirdi.

❖ 90-cı illərdə xalçaçılıq-gəbəçilik bazar üçün məhsul hazırlayan əmtəə istehsalı səviyyəsinə yüksəlmişdi.

❖ XIX əsrin ikinci yarısında kapitalist sənayesi, kənd təsərrüfatının inkişafı, nəqliyyat vasitələrinin yaxşılaşması Şimali Azərbaycanda ticarət dövriyyəsinin çoxalmasına, ticarət kapitalının həcminin artmasına səbəb oldu.

❖ Ağdam, Ağdaş bazarları ticarət əhəmiyyətinə görə Azərbaycanın hüdudlarından kənarda belə məşhur idilər. Bu bazarların hər birinin illik dövriyyəsi 2 milyon manatdan yuxarı olurdu.

❖ 1887-ci ildə Bakıda ticarət yarmarkası təşkil edildi.

❖ 1876-cı ilin martından Azərbaycanda da **gildiya ticarət qaydası**nın tətbiq olunmasına başlanıldı. Birinci gildiya tacirləri bütün dövlətlərin mallarını Rusiyanın hər yerində yük ilə, həm də tay, yaxud top ilə satmaq üçün lazım olan qədər kontor, anbar, dükan açmaq hüququna malik idi.

❖ Gildiya ticarət müəssisələri Bakıdan başqa, Gəncə, Şuşa, Nuxa, Şamaxı və d. yerlərdə də açılmışdı.

❖ Əsrin sonunda Şimali Azərbaycanda ticarət müəssisələrinin illik dövriyyəsi 190 milyon manat idi.

❖ H.Z.Tağıyev, Hacı Şıxəli Dadaşov, Hacı Hacıağa Dadaşov, M.Nağıyev və başqaları I gildiya tacirləri idi.

❖ Azərbaycan tacirləri Rusiya ilə yanaşı, İran, Türkiyə, Avropa dövlətləri ilə də ticarət edirdilər.

❖ Ticarətin ən mütərəqqi forması olan birja Cənubi Qafqazda ilk dəfə məhz Bakıda yaradılmışdı.

❖ Bakı şəhəri yük dövriyyəsinə görə Rusiyanın liman şəhərləri ilə müqayisədə **ikinci yerdə** idi.

**Millətin təşəkkülü**

❖ XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda millətin yaranmasını zəruri edən amillər :

1) kapitalizmin inkişafı,
2) ümumi bazarın, iqtisadi və mədəni mərkəzlərin meydana gəlməsi,
3) burjuaziya və fəhlələrin formalaşması) özünü göstərməkdə idi.

❖ Başqa millətlər kimi, Azərbaycan milləti də dil, ərazi, iqtisadi həyat birliyi, mədəniyyət birliyi zəminində tarixi sabit birlik kimi formalaşdı.

❖ "Azərbaycan milləti" sözünü ilk dəfə "Kəşkül" qəzeti işlətdi.

❖ Milli ziyalıların qabaqcıl nümayəndələrindən Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Firudin bəy Köçərli millətin ideoloji təfəkkürünün formalaşmasında mühüm rol oynadılar.

- ❖ Azərbaycanda milli burjuaziyanın təşəkkülü milli təfəkkürün inkişafına təsir göstərdi.
- ❖ Milli burjuaziyanın görkəmli nümayəndəsi H.ZTağıyevin istedadlı gəncləri Rusiya və Avropanın təhsil ocaqlarına göndərilməsində, məktəb, teatr və məscidlərin açılmasında böyük rolu olmuşdu.
- ❖ Millətin təzəcə təşəkkülü dövründə mütərəqqi demokratik cərəyana mənsub olan ziyalılar (Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Ə.Haqverdiyev və b.) Azərbaycanın, xüsusilə Bakının ictimai-iqtisadi və siyasi həyatındakı yeni meylləri öz əsərlərində əks etdirirdilər.
- ❖ Bəhs edilən dövrdə yaşayıb-yaratmış qabaqcıl ziyalılarımız milli şüurun oyanmasında mühüm rol oynayırdılar.

## Zaqatala üsyanı - 1863

❖ 1863-cü ildə Gürcüstanda kəndli islahatının keçirilməsinə hazırlıq xəbəri Şimali Azərbaycanın sosial-iqtisadi və siyasi cəhətdən daha ziddiyyətli bölgəsi olan, 1860-cı ildə inzibati-ərazi vahidi kimi yaradılmış Zaqatala dairəsində narazılığa səbəb oldu.

❖ Çarizmin kobud müstəmləkə siyasəti, məmurların özbaşınalığı, rüşvətxorluq, zorakı xristianlaşdırma siyasəti bölgədə ziddiyyətlərin kəskinləşməsində mühüm rol oynadı.

❖ Zaqatalaya gəlmiş hökumət komissiyasının hazırladığı islahat layihəsinə görə, yengiloylar və muğallar qazandıqları gəlirin on qatı həcmində birdəfəlik vəsait ödəməklə keşkəl sahiblərinin asılılığından azad edilməli idilər.

❖ Keşkəl sahibləri əsas gəlir mənbəyini itirmək təhlükəsi qarşısında qaldıqlarına görə burada islahatın keçirilməsini istəmirdilər.

❖ Yetişməkdə olan üsyanın başlanması üçün siqnal 1862-ci ildə Balakən kəndində kilsə tikilməsi oldu.

❖ Üsyan 1863-cü ilin iyununda rus ordusunun keçmiş zabiti Hacı Murtuzun rəhbərliyi ilə Zaqatalada başladı. Hacı Murtuzun ən yaxın köməkçiləri balakənli Bürcəli və carlı Molla Zəngi idi.

❖ Üsyan geniş sosial təbəqələri əhatə edən ümummilli xarakter daşıyırdı. Onun hərəkətverici qüvvəsini keşkəl sahibləri, müsəlman ruhaniləri və xalq təşkil edirdi.

❖ İyunun 5-də əhalinin dini hisslərinə təsir edərək daha çox tərəfdar toplamaq məqsədilə Hacı Murtuz imam elan olundu.

❖ Lakin Dağıstan camaatından gözlənilən köməyin gəlməməsi üsyan başlandığı andan üsyançılar arasında bir ümidsizlik yaratdı.

❖ İyunun 5-dən 6-na keçən gecə üsyançılar Zaqatala qalası üzərinə hücum etdilər.

❖ Lakin top atəşi altında geri çəkilməyə məcbur oldular. Rusiya hakim dairələri üsyanı yatırdılar.

❖ Üsyanın 18 nəfər ən fəal üzvü dar ağacından asıldı, mindən çox üsyançı isə ailə üzvləri ilə birlikdə katorqa işlərinə göndərildi.

❖ Hacı Murtuz sürgün edildi.

❖ Vurulan ziyan üsyançıların hesabına ödənildi.

❖ Üsyanın məğlubolma səbəbləri, demək olar ki, XIX əsrin 30-cu illərində baş vermiş üsyanların məğlubolma səbəbləri ilə eyni idi.

**Kəndli hərəkatı**

❖ XIX əsrin sonunda Azərbaycan kəndlərində ictimai təbəqələşmə prosesi sürətlənmişdi.

❖ Sahibkar və dövlət kəndlilərinin vəziyyəti ağır idi.

❖ Dövlət kəndlilərinin əksəriyyətinin 1-2 desyatindən artıq torpaq payı yox idi.

❖ Azərbaycana rus kəndlilərinin köçürülməsinin davam etdirilməsi kəndlilərin torpaqsızlaşmasına və ya az torpaqlı olmasına səbəb olurdu.

❖ Ağır vergilər kəndlilərin vəziyyətini daha da ağırlaşdırırdı.

❖ XIX əsrin son rübündə çarizmin milli müstəmləkə zülmünə qarşı mübarizə daha da gücləndi.

❖ Kəndlilər vergi verməkdən və mükəlləfiyyətlər daşımaqdan boyun qaçırır, sahibkarlara məxsus torpaqları ələ keçirir, hökumət məmurlarının, bəylərin evlərinə hücum edir, onları yandırır, hətta sahibkarları öldürürdülər.

❖ XIX əsrin son rübündə Qazax, Cavanşir, Yelizavetpol, Şuşa qəzalarında kəndlilərin fəal çıxışları oldu.

❖ XIX əsrin son rübündə Azərbaycanda kəndli hərəkatının ən geniş yayılmış forması həm dövlət, həm də sahibkar kəndlilərinin iştirak etdiyi qaçaqçılıq idi.

❖ Müxtəlif dövrlərdə Qubadlıda Qaçaq Nəbi, Qazax qəzasında Qaçaq Kərəm kimi şöhrətli qəhrəmanlar yetişdi.

❖ Azərbaycanda milli müstəmləkə zülmünə qarşı mübarizədə qaçaq hərəkatının böyük əhəmiyyəti oldu.

**Fəhlə tətilləri.**

❖ Bakıda neft sənayesi inkişafa başlayanda burada çalışan fəhlələrin əksəriyyətini Abşeron kəndliləri təşkil edirdi.

❖ Lakin sonrakı dövrlərdə neft sənayesinin coşqun inkişafı ilə əlaqədar onların sayı Rusiya imperiyasının daxili quberniyalarından, Qafqazın digər ərazilərindən, eləcə də Cənubi Azərbaycandan iş dalınca gələnlərin hesabına artdı.

- ❖ Azərbaycan fəhlələri sosial-siyasi hüquqlardan məhrum olub, az əmək haqqı ilə çox işləməyə məcbur idilər.
- ❖ Yaşayış üçün zəruri olan malların bahalığı, ev kirayəsinin yüksək olması fəhlələrin vəziyyətini daha da dözülməz edirdi.
- ❖ Texniki təhlükəsizlik aşağı səviyyədə olduğu üçün müəssisələrdə onlarca fəhlə bədbəxt hadisələr nəticəsində həlak olurdu.
- ❖ Qadın və uşaq əməyindən də geniş istifadə olunurdu.
- ❖ XIX əsrin 70-ci illərindən başlayaraq Gədəbəy, Bakı və Nuxada dağınıq tətillər baş verirdi.
- ❖ Fəhlələr maaşlarının artırılması, ailəli fəhlələrə mənzillər verilməsi və bu kimi sosial və iqtisadi tələblər irəli sürürdülər.
- ❖ 1881 və 1895-ci illərdə Bakıda tətillər baş verdi.
- ❖ Beləliklə, XIX əsrin sonunda Azərbaycanda sənaye fəhlələri özünü mütəşəkkil qüvvə kimi göstərməyə başladı.

**Cənubi Azərbaycan XIX əsrin 80-90-cı illərində.**
**Sosial-iqtisadi həyat**

❖ Cənubi Azərbaycanda XIX əsrin ikinci yarısında təbii-coğrafi şərait əkinçiliyin, maldarlığın inkişafına əlverişli şərait yaradırdı. Cənubi Azərbaycanda torpaqların əsas hissəsini xalisə adlanan dövlət torpaqları təşkil edirdi.

❖ 1886-cı ildə şah dövlət torpaqlarının satılması haqqında fərman verdi.

❖ İri feodallar, xüsusən ruhanilər taxıl möhtəkirliyi ilə məşğul olurdular.

❖ Kəndlilər dövlətə vergi verirdilər.

❖ Dövlət vergisi bir qayda olaraq paydar kəndlilərin ümumi məhsulundan alınırdı.

❖ Kəndlilər dövlətə:

1) torpaq vergisi;
2) baş pulu;
3) "sərkəllə" (yarımköçəri həyat sürən maldarlar heyvanların sayına görə);
4) "qapı pulu" (otlaqlara görə) və s. verirdilər.

❖ Kəndlilər əsas vergilərlə yanaşı, hərbi mükəlləfiyyət də daşıyırdılar.

❖ XIX əsrin 70-80-ci illərində Cənubi Azərbaycanda tacirlərin sayı artır, fəaliyyət dairəsi genişlənirdi.
❖ Onlar həm də sələmçiliklə məşğul olurdular.
❖ Xarici malların ölkəyə axım komprador burjuaziyanın (daxili bazarla xarici şirkətlər arasında vasitəçilik edən) inkişafı üçün şərait yaradırdı.
❖ Cənubi Azərbaycan kəndinə xarici kapital, xüsusilə də rus kapitalı nüfuz edirdi.
❖ 1891-ci ildə şah hökuməti tütün və tənbəki istehsalını ingilis kapitalisti Talbotun inhisarına vermişdi.

- ❖ Cənubi Azərbaycandan kəndlilərin kəsbkarlığa getməsi kütləvi şəkil almışdı.
- ❖ Xaricə İş dalınca gedənlərin əksəriyyəti Türkiyəyə, Cənubi Qafqaza (başlıca olaraq Şimali Azərbaycana), Volqaboyuna, Mərkəzi Asiyaya və s. yerlərə gedirdilər.
- ❖ Onlar getdikləri yerlərdə "qara fəhlə" kimi çalışır və yerli fəhlələrdən xeyli az maaş alırdılar.
- ❖ XIX əsrin 70-90-cı illərində Cənubi Azərbaycanda tez-tez çıxış və üsyanlar baş verirdi.
- ❖ 1872-ci ildə Təbrizdə vilayətin valisinə qarşı baş vermiş üsyan 1881-ci ildə onun Cənubi Azərbaycandan qovulması ilə nəticələndi.
- ❖ 1898-ci ilin avqust - sentyabr aylarında Zeynəb paşa adlı qadının rəhbərliyi ilə Təbrizdə üsyan baş verdi.
- ❖ Üsyan taxıl möhtəkirliyinə qarşı yönəlmişdi.
- ❖ 1891-1892-ci illərdə İranın bir çox yerlərində, o cümlədən Təbrizdə baş verən üsyan (tənbəki üsyanı) nəticəsində şah hökuməti tütün və tənbəki istehsalı üzərində ingilis Talbotun inhisar hüququnu geri alaraq onunla imzalanmış müqaviləni ləğv etdi.

## XIX əsrin ikinci yarısında Şimali Azərbaycan mədəniyyəti

❖ Şimali Azərbaycanın işğalından sonra Şimali və Cənubi Azərbaycanın mədəni inkişafında fərqlər nəzərə çarpmağa başladı.

❖ XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda mədəniyyətin xarakterik xüsusiyyətləri bunlar idi:

1. yeni tipli məktəblərin və mədəni-maarif müəssisələrinin, milli mətbuatın və milli teatrın yaranması;
2. qabaqcıl ziyalıların xalqın milli şüurunun oyanmasına ideya təsirinin güclənməsi.

❖ **XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda:**

1) Yüzlərcə milli məktəb və mədrəsələr fəaliyyət göstərirdi.
2) Bakı, Şamaxı, Şuşa, Nuxa və d. şəhərlərdə ədəbi dərnəklər, məclislər təşkil edilirdi.
3) Məktəblərlə yanaşı, ruhani məktəbləri - mədrəsələr də fəaliyyət göstərirdi.
4) İbtidai və ali dərəcələrə bölünən mədrəsələrdə təhsil pulsuz idi.
5) Avropa təhsili görmüş milli ziyalılar nəsli yetişməyə başlamışdı.
6) Belə ziyalılardan Rusiyada ali təhsil almış ilk azərbaycanlı Ağa bəy Yadigarovu, Almaniyada təhsil almış Məmmədağa Şahtaxtinskini göstərmək olar;

❖ **"Üsuli-cədid"** (yeni üsul) adlı ictimai-pedaqoji hərəkat geniş yayılırdı. Bu məktəblərdə təlim ana dilində aparılır, təhsil planına ümumtəhsil xarakterli fənlər daxil edilirdi. Bu tədris üsulunun əsas prinsiplərindən biri hərf-heca üsulundan daha səmərəli səs üsuluna keçid idi.

❖ 1872-ci il yeni məktəb əsasnaməsinə görə qəza məktəbləri pullu şəhər məktəblərinə çevrilmişdi.

❖ Xalq məktəbləri adı ilə meydana gələn ibtidai kənd məktəbləri yaranırdı.

❖ 80-ci illərdən başlayaraq rus - Azərbaycan məktəbləri yaranmağa başlandı.

❖ Məqsəd şagirdləri orta məktəbə hazırlamaq idi.

❖ İlk **rus - Azərbaycan məktəbi**nin əsası 1887-ci ildə Bakıda H.Mahmudbəyov və S.M.Qənizadə tərəfindən qoyuldu.

❖ Bu məktəblərdə tədris rus dilində olsa da, Azərbaycan dili icbari keçilirdi.

❖ 80 - 90-cı illərdə bir sıra sənət məktəbləri (Bakıda, Gəncədə, Zaqatalada və s.) açıldı.

❖ 1865-ci ildə Bakıda ilk **orta təhsil məktəbi** yarandı.

❖ İlk qadın və kişi gimnaziyaları açıldı.
❖ 1876-cı ildə **Qori Müəllimlər Seminariyası** təşkil olundu.
❖ 1879-cu ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi açıldı.
❖ İlk kitabxana - qiraətxanalar məktəblərin nəzdində açıldı.
❖ Məktəblərdən kənarda yerləşən ilk kütləvi kitabxanalardan biri 1868-ci ildə Gəncədə açıldı.
❖ 1894-cü ildə **N.Nərimanov** tərəfindən ilk Azərbaycan qiraətxanası təşkil edildi.

## Milli mətbuatın təşəkkülü

- Şimali Azərbaycanda milli mətbuatın əsası görkəmli ziyalı Həsən bəy Zərdabinin 1875-ci ildə nəşrinə başladığı "Əkinçi" qəzeti ilə qoyulmuşdur.
- 1877-ci ilədək qəzetin 56 sayı çapdan çıxmışdır.
- Bu qəzetin əsas məqsədi xalqı maarifləndirmək idi.
- 1879-cu ildə Tiflisdə Azərbaycan türkcəsində "Ziya" qəzeti çıxmağa başladı.
- 1880-ci ildən 1884-cü ilədək bu qəzet "Ziyayi Qafqaziyyə" adı altında nəşr olundu.
- 1880-ci ildə Tiflisdə "Kəşkül" qəzeti Cəlal Ünsüzadənin naşirliyi ilə işıq üzü gördü.
- Qəzet öz ideya istiqamətinə görə "Əkinçi"yə yaxın idi.
- 1880-1890-cı illərdə Bakıda rus dilində "Kaspi", "Baku" və başqa qəzetlər nəşr olunurdu.

## İncəsənətin inkişafı: teatr, musiqi, memarlıq

❖ 1873-cü il martın 23-də Bakı realnı məktəbinin həvəskar teatr truppası tərəfindən görkəmli dramaturqumuz Mirzə Fətəli Axundovun "Sərgüzəşti vəziri-xani Lənkəran" komediyasının tamaşaya qoyulması ilə milli teatrımız yarandı.
❖ Xalqımızın böyük oğlu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev 1883-cü ildə Bakıda teatr binası tikdirdi.
❖ 1895-ci ildə Azərbaycanın teatr xadimləri "Bakı artistlər cəmiyyəti"ni yaratdılar.
❖ XIX əsrin ikinci yarısında musiqidə böyük canlanma var idi.
❖ Peşəkar aşıqlardan Aşıq Alı, Aştq Ələsgər, Molla Cümə böyük şöhrət qazanmışdılar.
❖ Tarzən Sadıqcan tarı təkmilləşdirmişdi.
❖ Xanəndələrdən Xarrat Qulu, Hacı Hüsü, Məşədi İsi, Cabbar Qaryağdıoğlu və b. muğam sənətinin inkişafında misilsiz xidmətlər göstərmişdilər.

❖ Dövrün ən görkəmli memarı olan Qasım bəy Hacıbababəyov Bakıda böyük bir karvansara inşa etmişdi.

❖ 1865-ci ildə dənizkənarı bulvar salınmağa başladı,

❖ 1886-cı ildə isə Bakının ikinci qala qapıları tiklimişdi.

❖ Dövrün görkəmli rəssamlarından Mir Mövsüm Nəvvab "Quşlar" miniatürünü və Teymurləngin portretini çəkmişdi.

❖ Mirzə Qədim İrəvani "Cavan oğlan", "Oturan qadın" və s. rəsmləri ilə təsviri rəssamlıq sənətini zənginləşdirmişdi.

## XIX əsrdə Cənubi Azərbaycan mədəniyyəti

❖ Türkmənçay müqaviləsi bağlandıqdan sonra Azərbaycanın şimalı və cənubu müxtəlif sosial-iqtisadi və mədəni inkişaf yoluna qədəm qoydu.
❖ XIX əsrin birinci yarısında Cənubi Azərbaycanda dövlət elm və maarifin inkişafına az diqqət yetirirdi.
❖ Orta və ali təhsil ocaqları olan mədrəsələr fəaliyyət göstərirdi.
❖ Şagirdlər təhsil aldıqları müddətdə (10-12 il) mədrəsələrdə yaşayırdılar.
❖ Bir neçə yeni tipli məktəbin açılması Qacarların deyil, vətənpərvər ziyalıların səyləri nəticəsində mümkün olmuşdu.
❖ Cənubi Azərbaycanda tarixşünaslıq elmi sahəsində bir sıra əsərlər yazılmışdı. Məhəmməd Rəzi "Zinət üt-təvarix", Məhəmməd Sadıq "Cahanara", Əbdürrəzzaq Dünbüli "Hökmdarın şanlı işləri" adlı əsərlərlə tarix elmini inkişaf etdirmişlər.
❖ XIX əsrin ikinci yarısında Şimali Azərbaycandan fərqli olaraq Cənubi Azərbaycanda milli mədəniyyətin zəif cəhəti onun hələ də fars dili ənənəsi çərçivəsindən çıxa bilməməsində idi.

❖ Şimaldan fərqli olaraq Cənubi Azərbaycan ziyalıları doğma dilin ədəbiyyat, mətbuat və publisistikada hakim dilə çevrilməsi uğrunda mübarizə aparmırdılar.

❖ Buna baxmayaraq maarif və mətbuat sahələrində böyük irəliləyişlər var idi.

❖ 1869-cu ildə Təbrizdə "Mədrəseyi-Nasiri", 1877-ci ildə Təbriz Dövlət Mədrəsəsi, 1878- ci ildə Urmiyada Ali Tibb Məktəbi açılmışdı.

❖ "İran maarifinin atası" adlandırılan Mirzə Həsən Rüşdiyyə 1887-ci ildə Təbrizdə "Dəbestan" adlı ilk üsuli-cədid məktəbini təsis ətmişdi.

❖ Cənubi Azərbaycanda mətbuatın əsası 1858-ci ildə nəşrə başlayan "Azərbaycan" qəzeti ilə qoyuldu.

❖ 1880-ci ildə "Təbriz",

❖ 1884-cü ildə "Mədəniyyət" adlı qəzetlərin nəşrinə başlanıldı.

❖ Mühacirətdə olan azərbaycanlı ziyalıların İstanbulda nəşr etdirdikləri "Əxtər" (1875) və "Şahsevən" qəzetləri geniş şöhrət qazanmışdı.

## AZƏRBAYCAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

## Şimali Azərbaycanda neft sənayesinin vəziyyəti. inhisarlar.

❖ 1900-1903-cü illər dünya böhranı Rusiya, eləcə də Azərbaycan iqtisadiyyatına güclü təsir etdi.

❖ İqtisadi böhran Azərbaycanın neft, dağ-mədən sənayeləri ilə bağlı olan sahələrinin inkişafını ləngitdi.

❖ Lakin dünya iqtisadi böhranı Azərbaycanın yüngül və yeyinti sənaye sahələrinə elə bir ciddi zərər vurmadı.

❖ Böhran ərəfəsində Bakıda iri inhisar birliklərinin mədənlərində hasilat sürətlə artırdı.

❖ Mədənlərdə hasilatın artmasına baxmayaraq, daxili və xarici bazarlarda ona olan tələbat kəskin şəkildə azalmışdı.

❖ Qiymətlər getdikcə aşağı düşürdü.

❖ Nəticədə qazma işləri, neft hasilatı və emalı ixtisar olunur, kəşfiyyat işlərinin həcmi azalır, dayanan quyuların sayı artırdı.

- Neftayırma zavodlarının xeyli hissəsi işini dayandırmışdı.
- Böhran illərində xırda və orta müəssisələrin iflasa uğraması nəticəsində istehsalın təmərküzləşməsi xeyli güclənmişdi.
- İnhisarların artması ilə neft sənayesinin təmərküzləşməsi də güclənirdi.
- Bakı neft sənayesi kapitalın mərkəzləşməsi səviyyəsinə görə bütün dünyada ön sıralarda dayanırdı.
- 1900-cü ildə "Nobel qardaşları" birliyi, Mantaşov, Rotşild, Bakı neft cəmiyyəti, Xəzər - Qara dəniz birliyi, Rus neft istehsalı və maye-yanacaq cəmiyyəti Bakıda çıxarılan bütün neftin 50 faizini verirdi.

❖ XX əsrin əvvəllərində Bakı sənayesinə xarici kapital qoyuluşu artmaqda idi.
❖ 1903-cü ilədək ingilis kompaniyaları Bakının neft müəssisələrinə 60 milyon manat kapital qoymuşdular.
❖ İngiltərə, Fransa və ABŞ ağ neftə olan tələbatlarının xeyli hissəsini Bakının hesabına ödəyirdilər.
❖ Neft istehsalı, emalı, daşınması və satışı "Nobel qardaşları" şirkəti, "Nobmazut", "Oyl, "Şell" kimi inhisar birliklərinə məxsus idi.
❖ İnhisarçılar texniki geriliyin qarşısını almaq üçün tədbirlər görmür, süni surətdə inkişafın qarşısını alır, neftin qiymətini qaldırırdılar.
❖ Birinci dünya müharibəsi ərəfəsində İngiltərə, Fransa, Almaniya inhisarları arasında mübarizə daha da gücləndi.

## Şimali Azərbaycanda sənayenin başqa sahələri

❖ XX əsrin əvvəlində kapitalist münasibətləri təkcə Bakıda deyil, Azərbaycan qəzalarında da inkişaf edirdi. Ölkə sənayesi təkcə neft hasilatından ibarət olmayıb, sənayenin digər sahələri - dağ-mədən, mexaniki istehsal, energetika, toxuculuq, pambıqtəmizləmə, ipək emalı, yeyinti sənayesi, nəqliyyat, rabitə, bank-kredit sistemi və ticarət də inkişaf edirdi.

❖ Əsrin əvvəlində həmin müəssisələrdə texniki yeniliklərin tətbiqi istehsalın inkişafını sürətləndirirdi.
❖ Neft sənayesi ilə yanaşı, Azərbayc anda əlvan metallurgiya sənayesi də inkişaf edirdi.
❖ Bu sahədə Gədəbəydəki "Simens qardaşları" səhmdar cəmiyyətinə məxsus olan zavodlar fərqlənirdi.
❖ Gədəbəy misi dünyada ən təmiz və ən qiymətli mis hesab olunurdu.
❖ XX əsrin əvvəlində Azərbaycanda yeni mis filizi ehtiyatları aşkar edildikdən sonra Qalakənd çayı üzərində ikiturbinli elektrik stansiyası tikildi.
❖ Bu, Azərbaycan qəzalarında yaradılmış **ilk su-elektrik stansiyası** idi.
❖ Buna baxmayaraq Moskvada yeni zavodlar tikildiyi üçün 1906-cı ildə Qalakənd missaflaşdırma zavodu istehsalı dayandırmışdı.
❖Daşkəsəndəki zəngin dəmir filizi yatağından yalnız mis zavodlarında aşqar kimi istifadə olunurdu.
❖ Mis sənayesində 1900-cü ildə başlanan inhisarlaşma prosesi 1913-cü ildə başa çatdı.

## Şimali Azərbaycanda yüngül və yeyinti sənayesi

❖ Xammal bolluğu Azərbaycanda ipək sənayesinin inkişafına şərait yaratmışdı.
❖ İpək sənayesi ölkəmizin şimal-qərb və cənub-qərb hissəsində yayılmışdı.
❖ Cənubi Qafqazda ipək emalı sənayesinin mərkəzi **Nuxa şəhəri** idi.
❖ Bəhs edilən dövrdə ipək emalı sənayesində şirkətlər və səhmdar cəmiyyətləri mühüm rol oynayırdı.
❖ Nuxada istehsal edilən xam ipək beynəlxalq sərgilərində qızıl və gümüş medallar almışdı.
❖ XX əsrin əvvəllərində **pambıqçılığın** inkişafı ilə əlaqədar pambıqtəmizləmə sənayesi də inkişaf edirdi.
❖ Bu sahədə **Gəncə quberniyası birinci yerdə** idi.
❖ Pambıqtəmizləmə sənayesinə qoyulan sərmayənin 80 faizi milli kapitala məxsus idi.
❖ Bəhs olunan dövrdə Azərbaycanda maldarlığın geniş yayılması gön- dəri istehsalı üçün əlverişli şərait yaradırdı.

❖ Azərbaycanın yeyinti sənayesinin mühüm sahələrini şərabçılıq, spirt, konyak istehsalı təşkil edirdi.

❖ **Şərab** hazırlanmasında Gəncə qəzası xüsusilə fərqlənirdi.

❖ Cənubi Qafqazda istehsal edilən şərabın üçdəbir hissəsini Azərbaycan verirdi.

❖ Bəhs edilən dövrdə **tütüncülük** Zaqatala dairəsində, Nuxa, Cavanşir, Şamaxı qəzalarında yayılmışdı.

❖ Azərbaycanda ilk tənbəki fabriki XIX əsrin ikinci yarısında Nuxada fəaliyyətə başlamışdı.

❖ Dünya bazarına çıxarılan ənənəvi Azərbaycan mallarından biri də **balıqçılıq** məhsulları idi.

❖ XX əsrin əvvəllərində Azərbaycanın 7 qəzasında balıqçılıqla məşğul olurdular.

❖ Xəzər dənizində əsasən siyənək balığı ovlanırdı.

❖ Kür çayı boyunca yerləşmiş iri vətəgələrdə ovlanmış balıqlar duzlanır, konservləşdirilirdi.

❖ Nərə, uzunburun, ağbalıq, qayabalığı və s. növlər təzə halda da satılırdı. Balıq sənayesində də milli kapital üstünlük təşkil edirdi. Bu sahə H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov və başqalarının əlində idi.

❖ 1913-cü ildə Polşa, Almaniya, Fransa, Avstriya və Amerikaya 7 milyon manatlıq balıq məhsulları ixrac olunmuşdu.

❖ Şimali Azərbaycanda istehsal olunan məhsulların ümumi dəyəri və fəhlələrin sayına görə balıq sənayesi neft sənayesindən sonra ikinci yerdə dururdu.

❖ XX əsrin əvvəllərində Azərbaycanda **biyan kökü** istehsalının inkişafı ingilis kapitalı ilə bağlı idi.

❖ Həmin dövrdə dünyanın ən keyfiyyətli biyanı Azərbaycanda istehsal olunurdu.

❖ Gəncə, Kürdəmir, Ucar və Ləkidə biyan emalı zavodları var idi.

❖ Emal prosesində alınan maye - cövhər əsasən yeyinti sənayesində istifadə olunurdu.

❖ Onu tütünə, siqara, konfetə, pivəyə, likörə və s. məhsullara qatır, habelə əczaçılıqda müxtəlif dərmanların hazırlanmasında, texnikada, rəngli parçalar istehsalında istifadə edirdilər.

❖ Bu dövrdə meydana gəlmiş sənaye sahələrindən biri də **çiyid yağı** istehsalı idi.
❖ 1902-ci ildə Şəkidə çiyid yağı zavodu tikildi.
❖ Azərbaycanda duz istehsalının yeyinti sənayesi sahəsi kimi inkişafı XX əsrin əvvəllərinə təsadüf edir.
❖ Daşduz Naxçıvan qəzasında, şor duz Abşeronda və Cavad qəzasında çıxarılırdı.
❖ XX əsrin əvvəllərində Azərbaycanda kapitalist münasibətlərinin inkişafı şəhər təsərrüfatının, ticarətin, nəqliyyatın, rabitənin inkişafına güclü təsir göstərdi.
❖ Nuxa ölkəmizin ikinci sənaye və ticarət mərkəzi, **Bakı** isə yük dövriyyəsinə görə Rusiyada birinci liman şəhəri idi.
❖ Bakıdakı iri ticarət səhmdar banklarının sahibləri arasında H.Z.Tağıyev, M.Nağıyev kimi milli burjuaziyanın görkəmli nümayəndələri var idi.

## Şimali Azərbaycanda kənd təsərrüfatı

❖XX əsrin əvvəllərində ölkəmizin kənd təsərrüfatında kapitalizmin inkişafı əkinçilikdə təkmil alətlərin tətbiqini (traktorlar, dəmir dırmıxlar və s.) xeyli genişləndirmişdi.

❖ Kapitalistcəsinə təşkil edilmiş qolçomaq və mülkədar təsərrüfatlarında taxılın müəyyən hissəsi bazar üçün istehsal edilirdi.

❖ Əvvəllərdə olduğu kimi, kəndlilərin bir hissəsinin torpağı yox idi, böyük əksəriyyəti isə az torpaqlı idi. Ümumiyyətlə, ölkəmizin kənd təsərrüfatında texnika ləng tətbiq edilirdi.

❖ Bunun əsas səbəbləri aşağıdakılardır:

1. Azərbaycanın özündə kənd təsərrüfatı alətləri və maşınları istehsal edən zavodların olmaması;
2. İxtisaslı mütəxəssislərin az olması.

❖ Taxıl və texniki bitkilərə tələbatın artması suvarılan torpaq sahələrinin genişləndirilməsini tələb edirdi.

❖ Əsrin əvvəllərində Kür və Araz çayları sahilində 150-yə qədər suvuran qurğu qurulmuşdu.

❖ XX əsrin əvvəllərində texniki bitkilər əkini xeyli genişlənmişdi.

❖ Onların içərisində sənaye pambıqçılığı xüsusilə fərqlənirdi. Pambıq əkinində kotanlarla bərabər, traktorlardan da istifadə olunurdu.

❖ Cənubi Qafqazdakı pambıq əkin sahələrinin 70%-dən çoxu Azərbaycanın payına düşürdü. Pambıqçılıq təsərrüfatlarında cərgəli əkin üsulu üstünlük təşkil edirdi.

❖ 1909-cu ildən etibarən Azərbaycanda borc-kredit şirkətləri təşkil edilmişdi.

❖ 1913-cü ildə artıq burada 129-dan artıq kredit şirkəti və borc-əmanət kassaları fəaliyyət göstərirdi.

❖ Bunlar kəndlilərə əlverişli şərtlərlə kredit verirdilər.

❖ XX əsrin əvvəllərində Azərbaycanda ipəkçiliklə-kümdarlıqla məşğul olan kəndlilərin sayı artır, çəkil plantasiyalarının ümumi sahələri genişlənirdi.

❖ İpəkçilik kapitalist əmtəə istehsalının inkişaf etdiyi kənd təsərrüfatı sahələrindən birinə çevrilmişdi.

❖ 1914-cü ildə Cənubi Qafqazda əldə edilən baramanın 81%-i Azərbaycanın payına düşürdü. Azərbaycanda becərilən baramanın, demək olar ki, hamısı yerli ipək fabriklərində emaldan keçirilirdi.

- İpək fabriklərindəki mövcud texnika aşağı növ baramanı emal etməyə imkan vermədiyinə görə onu İtaliya və Fransanın Milan, Marsel, Lion şəhərlərinə ixrac edirdilər.
- XX əsrin əvvəllərində **tütünə** tələbat artdıqca becərilən əkin sahələri də genişlənirdi.
- Tütünçülük ən çox Zaqatala dairəsində, eləcə də Nuxa, Cavanşir, Şuşa, Quba və Şamaxı qəzalarında intişar tapmışdı.
- Zaqatalada sarı Trabzon və Samsun tütün növləri yetişdirilirdi. Sənaye tütünçülüyü də geniş vüsət almışdı.
- Azərbaycanda yığılan tütün yarpağı əsasən yerli fabriklərdə emal edilir, az bir qismi İrana ixrac olunurdu.
- 1902-ci ildə ixraca göndərilən tütünə yüksək gömrük haqqının tətbiq edilməsi və istehsal üzərinə yüksək aksiz vergisi qoyulması tütünçülüyün inkişafına əngəl törədirdi.

❖ XX əsrin əvvəllərində Azərbaycanda **üzümçülük** də geniş yayılmışdı.

❖ Onun böyük hissəsi mülkədarların, qolçomaqların və ayrı-ayrı şirkətlərin əlində cəmlənmişdi. İri şirkətlər üzüm və şərab istehsalında həlledici rol oynayırdılar. Becərilən məhsulun bir hissəsi yeyinti məhsulu kimi satışa çıxarılır, digər hissəsi isə ölkədəki çoxsaylı şərab zavodlarına satılırdı.

❖ Azərbaycan qəzalarında **maldarlıq** (qoyunçuluq, iribuynuzlu mal-qara) bu və ya digər dərəcədə inkişaf etmişdi. Bu dövrdə əmtəə maldarlığı xüsusi əhəmiyyətə malik idi. İri maldarlıq təsərrüfatlarında əmtəə südçülüyü və əmtəəlik mal-qara bəslənməsi geniş miqyas almışdı. Yundan toxunmuş Azərbaycan xalçaları, gəbələri dünya bazarlarında böyük həvəslə alınırdı.

❖ Əsrin əvvəllərində Azərbaycanda **meyvəçilik** də inkişaf etmişdi. Rusiyanın daxili bazarlarında quru meyvəyə olan tələbat bu sahənin inkişafına şərait yaradırdı.

❖ Azərbaycanda kəndlilərin aztorpaqlı olmasına baxmayaraq Rusiyadan buraya köçürülənlərin sayı getdikcə artırdı.

❖ 1905-ci ildən etibarən rusları Muğanda məskunlaşdırmağa başladılar.

❖ Hesablamalara görə, XX əsrin əvvəllərində təkcə Bakı quberniyasına köçürülənlər üçün 44 min desyatin yararlı torpaq sahəsi ayrılmışdı.

❖ Quberniyada bəzən bütöv bir kəndin torpaqları gəlmə rus kəndlilərinə verilirdi.

❖ 1908-1910-cu illərdə çarizmin köçürmə siyasəti nəticəsində Azərbaycana üç mindən artıq kəndli ailəsi köçürülmüşdü.

❖ 1912-ci ildə:

❖ Bakı quberniyasında **60**,

❖ Gəncə quberniyasında **29** rus kəndi salınmışdı.

# Şimali Azərbaycanda aqrar qanunlar

❖ 1870-ci il kəndli islahatı Azərbaycanda aqrar məsələni yarımçıq həll etdi. Kəndlilərə pay torpağı verilməsi məsələsi həll edilmədi.
❖ 1882-ci ildə kəndli **torpaq bankı** təşkil edildikdən sonra kəndlilərin az-çox bir qismi müəyyən qədər torpaq payı almağa müvəffəq oldu.
❖ Kəndlilərin öz pay torpaqlarım satın almasını çətinləşdirən amillərdən biri də Azərbaycanda pay torpaqlarının satınalma qiymətinin Rusiyadakından dəfələrlə yüksək olması idi.
❖ İslahatdan sonra kəndlilər istifadə etdikləri pay torpağı əvəzində islahataqədərki vergiləri verməyə və mükəlləfiyyətləri daşımağa məcbur idilər. Başqa sözlə desək, "müvəqqəti mükəlləfiyyətli" idilər.
❖ Kənd təsərrüfatında kapitalist əmtəə istehsalı artdıqca torpağın qiyməti də sürətlə yüksəlirdi.
❖ Bu dövrdə torpağın çox hissəsi dövlətin əlində idi.
❖ Kəndlilərin 68 faizini dövlət kəndlisi təşkil edirdi.
❖ Hökumət dövlət kəndində torpaq münasibətlərini nizama salmaq üçün heç bir ciddi tədbir görməmişdi.

❖ 1900-cü il mayın 1-də hökumət dövlət kəndlilərinin torpaq münasibətlərini qaydaya salmaq üçün qanun verdi.

❖ "Cənubi Qafqazda dövlət kəndlilərinin torpaq quruluşu" haqqında bu qanun dövlət kəndlilərinə kənd icması yığıncaqlarının razılığı ilə icma torpaqlarından nəsli istifadə hüququ verirdi. Qanunun bu maddəsi icma torpaq mülkiyyətinə çox ağır zərbə vurdu.

❖ "Cənubi Qafqazın beş quberniyasında pay torpaqlarını müəyyənləşdirmək və torpaq quruluşu işini aparmaq qaydası haqqında" əsasnamə 1903-cü il aprelin 21-də qüvvəyə mindi.

❖ Qanuna görə, pay torpaqlarının planı hazırlanarkən istifadə edilən mövcud sərhədlər əsas götürülməli idi.

❖ Əsasnamədəki yenilik kəndlilərə əlavə pay torpağının verilməsi, çəmən; otlaq və meşələrdən pay ayrılması qaydalarından ibarət idi.

❖ Lakin nə qanun, nə də əsasnamə dövlət kəndlilərinin torpaq quruluşu məsələsini tam həli etmədi.

❖ Kəndillərin istifadəsində olan pay torpaqları əsasən yenə də dövlətin mülkiyyətində idi. 1912-ci il dekabrın 20-de "Cənubi Qafqaz quberniyasında torpaqların məcburi surətdə satın alınması haqqında" qanun verildi. Qanunla birlikdə onun həyata keçirilməsi üçün "Qaydalar" da təsdiq olundu.

❖Həmin "Qaydalar"a görə, Azərbaycandakı sahibkar kəndliləri 1913-cü il yanvarın 1-dən mükəlləfiyyət daşımaqdan azad olunurdular.

❖ Kəndlilər pay torpaqlarını məcburi şəkildə satın almalı idilər. Onlar yalnız torpaq nizamnaməsində göstərilən torpağı öz mülkiyyətinə keçirə bilərdi. İcarəyə verilən torpaqlar mülkədarın mülkiyyətində qalırdı.

❖ Kəndli çəmən, otlaq və meşə sahələrini satın ala bilməzdi. O, həmin yerlərdən yalnız torpaq sahibinin razılığı ilə istifadə edə bilərdi. Su arxları mülkədarların xüsusi mülkiyyəti olaraq qalırdı.

❖ Dövlət xəzinəsi torpağın haqqını 20 il ərzində kəndlilərdən toplamalı idi, mülkədarlar isə torpaq üçün əvəz haqqını dövlət xəzinəsindən alırdı.

❖ 1912-ci il aqrar qanunu Zaqatala dairəsi kəndlilərinə şamil edilmədi.

❖ 1913-cü il iyulun 7-də hökumət Dağıstan və Zaqatala dairəsində feodal - asılı münasibətlərinin ləğv olunması haqqında qanun qəbul edildi.

❖ 1912-1913-cü illər aqrar qanunları pay torpaqlarının sahibkar kəndlilərinin xüsusi mülkiyyətinə çevrilməsinə, onların "müvəqqəti mülkiyyətli" münasibətlərdən azad edilməsinə imkan verdi.

❖ Azərbaycan kəndində kapitalist münasibətlərinin inkişafı və ictimai təbəqələşmə getdikcə sürətlənirdi.

## Şimali Azərbaycanda sosial vəziyyət

- XX əsrin başlanğıcında çarizmin milli müstəmləkə zülmü və kapitalist münasibətlərinin inkişafı Şimali Azərbaycanda əhalinin sosial tərkibinə ciddi təsir göstərmişdi. Belə bir şəraitdə sənaye və ticarət burjuaziyasının xüsusi çəkisi artırdı. Artıq əsrin son illərində Şimali Azərbaycanda çoxmillətli fəhlə təbəqəsi təşəkkül tapmışdı.
- Əsrin əvvəllərində Azərbaycan tədricən aqrar-sənaye ölkəsinə çevrilməkdə idi. Kənddə sosial təbəqələşmə kəndlilərin içərisindən kənd varlılarının və qolçomaqların ayrılmasına gətirib çıxarırdı. Kəndlilərin kəsbkarlıq dalınca getməsi kənddə ictimai təbəqələşməni göstərən əlamətlərdən biri idi.
- Mülkədarların bir qismi çarizmin müstəmləkə əsarətinə nifrət edir, xalqın sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün yollar axtarırdılar.
- Məşhur Gəncə mülkədarı İsmayıl xan Ziyadxanlının yaratmış olduğu "Müdafiə" Partiyasının proqramında kəndlilərin həyatının yaxşılaşdırılması və kənddə mədəniyyətin yüksəldilməsi nəzərdə tutulurdu.
- Mülkədarlardan Allahyar bəy Zülqədərov, Fərrux bəy Vəzirov və b. da həmişə yoxsullara kömək edirdilər. Lakin ümumilikdə Şimali Azərbaycan kəndlərində sosial münasibətlər kəskin idi.

❖ Azərbaycan şəhərlərində isə fəhlələrlə sahibkarlar arasında ziddiyyətlər getdikcə kəskinləşirdi.

❖ Milli burjuaziyanın H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Səlimxanov, M.C.Əliyev kimi nümayəndələri müsəlman fəhlələrinin qayğısına qalır, onların maddi vəziyyətinin qismən yaxşılaşmasına nail olurdular.

❖ Məsələn, H.Z.Tağıyevin toxuculuq fabrikində əsasən müsəlman fəhlələri çalışırdı. Fabrikdə fəhlələr üçün tibb məntəqəsi, məscid, kitabxana və s. var idi. Təşkil olunmuş axşam kurslarında fəhlələr və uşaqları pulsuz təhsil alırdılar.

❖ XIX əsrdə çarizmin həyata keçirdiyi köçürmə siyasəti nəticəsində Şimali Azərbaycanın bir sıra bölgələrində etnik mənzərə dəyişmişdi.

❖ XX əsrin əvvəllərində kəndlərdə və şəhərlərdə sistemli şəkildə davam etdirilən bu siyasət rusların müsəlmanlar yaşadıqları kəndlərdə yerləşdirilməsinə xidmət edirdi.

❖ Buna görə də həmin dövrdə Cənubi Qafqazın əhalisinin 10 faizi, Bakı əhalisinin isə 30 faizi ruslardan ibarət idi.

- Ermənilər Ramana, Balaxanı, Sabunçu, Zabrat kəndlərindən azərbaycanlıların köçürülməsini tələb edirdilər.
- Lakin əhalinin ayağa qalxması, milli burjuaziyanın qətiyyətli mövqeyi bu çirkin planın həyata keçirilməsinə imkan vermədi.
- XX əsrin əvvəllərində Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Fətəli xan Xoyski, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov və d. yüzlərcə ziyalı milli şüurun, milli özünüdərkin formalaşmasında mühüm rol oynayırdı.

**Şimali Azərbaycanda mövcud quruluşa qarşı çıxışlar.**

❖ 1900-1903-cü illərdəki sənaye böhranı Azərbaycanın iqtisadiyyatına güclü zərbə vurmuş, əhalinin vəziyyətini pisləşdirmişdi. Şimali Azərbaycanda sənaye müəssisələrində iş günü 10-14 saata çatırdı. Fəhlələrin əmək haqqı 20-25 faiz azalmışdı. Onların iş şəraiti dözülməz idi. Müəssisələrdə adi sanitariya və təhlükəsizlik qaydalarına əməl olunmurdu. Belə bir şərait fəhlələrin siyasi cəhətdən oyanmasına, inqilabi hərəkatın başlanmasına zəmin yaradırdı.

❖ Bakıda tətil hərəkatının təşkilatçısı və iştirakçılarının əksəriyyətini Rusiyadan buraya işləməyə gəlmiş fəhlələr təşkil edirdi.

❖ 1901-ci ilin yanvarında Bakıda iri tütün fabrikinin fəhlələri, mart ayında Sabunçuda "Remont" mexaniki emalatxanasının fəhlələri, ilin sonunda Tovuz dəmir yolu stansiyasında işləyən fəhlələr və b. tətil etmişdilər.

❖ 1902-ci ilin aprelində Bakıda 5 min fəhlənin iştirakı ilə ilk dəfə açıq nümayiş keçirildi.

❖ 1903-cü il martın 2-də Bakıda fəhlələrin açıq küçə nümayişi keçirildi.

❖ 1903-cü il iyulun 1-dən 22-nə qədər Bakıda ilk ümumi siyasi tətil keçirilmişdi. Tətil hökumətə və sahibkarlara fəhlələrin böyük qüvvə olduğunu anlatdı.

❖ 1904-cü il dekabrın 13-də Balaxanı mədənlərində başlayan tətil hərəkatı dekabrın 30-da neft sənayeçiləri ilə fəhlələr arasında müştərək müqavilənin imzalanmasına gətirib çıxardı.

❖ "Mazut konstitusiyası" adını almış müştərək müqavilənin əsas müddəaları bunlar idi:

1) 9 saatlıq iş günü,
2) ayda 4 dəfə istirahət günü və ildə bir dəfə məzuniyyət verilməsi;
3) orta əmək haqqının 20-25 faiz artırılması, xəstəlik üzündən işləyə bilməyən fəhlələrə əmək haqqının verilməsi və s.

❖ Göstərilən bu güzəştlər ancaq neft sənayesində çalışan fəhlələrə aid idi.

❖ Müştərək müqavilə fəhlələrin həm neft sahibkarları və həm də çarizm üzərində qazandıqları böyük qələbə idi.

"Mazut konstitusiyası" qəbul edildikdən sonra Bakıda mədən-zavod komissiyaları meydana çıxdı.

## Şimali Azərbaycan Birinci rus inqilabı illərində

- ❖ 1905-ci il yanvarın 9-da "Qanlı bazar günü" hadisəsi ilə başlayan birinci burjua inqilabının təsiri ilə Bakı şəhəri və Bakı quberniyasının ərazisində 25 müəssisənin fəhlələri tətil etdilər.
- ❖ Tətil polis və əsgərlərin köməyi ilə çətinliklə dayandırıldı.
- ❖ Hərəkatın qarşısını almaq, əhalini başqa istiqamətə yönəltmək məqsədilə çarizm millətlərarası qırğından istifadə etdi.
- ❖ Bakıda fevralın 9-dək davam edən qırğında ermənilərin əli ilə minlərlə azərbaycanlı qətlə yetirildi.
- ❖ İnqilabi hərəkata qarşı mübarizəni gücləndirmək üçün Qafqazın idarə sistemində dəyişiklik edildi.
- ❖ 1905-ci il fevralın 26-da əvvəllər ləğv edilmiş canişinlik bərpa olundu. Vorontsov-Daşkov canişin təyin edildi. Bakıda hərbi qubernator vəzifəsi təsis olundu. Bakı şəhəri və Bakı quberniyası ərazisində hərbi vəziyyət elan edildi.
- ❖ Hökumətin gördüyü tədbirlərə baxmayaraq, 1905-ci ilin yazı və yayında tətil hərəkatı 100-dən çox müəssisəni əhatə etdi.
- ❖ Oktyabrın 7-də Moskva - Kazan dəmir yolunda başlanan və ümumrusiya tətilinə çevrilən hərəkatın təsiri ilə Azərbaycanın bir çox ərazilərini tətil hərəkatı bürüdü .

❖ Oktyabrın axırlarından başlayaraq Azərbaycanda sənaye müəssisələrində fəhlə komissiyaları təşkil olundu.

❖ 1905-ci il noyabrın 25-də rəsmi olaraq Bakı Fəhlə Deputatları Soveti yaradıldı.

❖ Lakin Bakı Soveti uzunömürlü olmadı.

❖ 1906-cı il fevralın 23-də onun fəaliyyəti dayandırıldı.

❖ Çar hökumətinin gördüyü tədbirlərə baxmayaraq, Azərbaycan fəhlələri tətili davam etdirirdi.

❖ Tətil yüzlərcə sənaye müəssisəsini əhatə edirdi. 1906-cı ilin yaz - yay aylarında tətil hərəkatı böyük vüsət almışdı.

❖ 1905-ci ildə Azərbaycanın hər yerində kəndli hərəkatı-qaçaq hərəkatı geniş miqyas aldı.

❖ Qaçaq hərəkatına rəhbərlik edən Qaçaq Kərəm, Dəli Alı, Məşədi Yusif, Məşədi Qədir, Qandal Nağı, Zahid və b. daha məşhur idilər.

❖ Bütün müsbət cəhətlərinə baxmayaraq, kəndli çıxışları və qaçaq hərəkatı özünü müstəqil, mütəşəkkil qüvvə kimi göstərə bilmədi.

## Çarizmin Şimali Azərbaycanda milli qırğın siyasəti

❖ "Xalqlar həbsxanası" adlandırılan Rusiyada xalqlar bir-birinə qarşı qoyulur, Milli ləyaqətləri təhqir edilirdi.

❖ İstənilən vaxt millətlər arasında münaqişə yaratmağa qadir olan çarizm 1905-1907-ci illərdə Azərbaycanda dövlət səviyyəsində hazırlanan **milli qırğın** törətdi.

❖ Hökumətin milli qırğın siyasətinin həyata keçirilməsində Daşnaksütyun Partiyası və erməni quldurları həlledici rol oynadı.

❖ Milli qırğın nəticəsində 158 müsəlman kəndi dağıdılmışdı.

❖ "Böyük Ermənistan" xülyasına düşən ermənilər Rusiyanın köməyi ilə Cənubi Qafqazda muxtariyyət almağa ümid edirdilər.

❖ Onlar hər vasitə ilə azərbaycanlıları doğma yurdlarından didərgin salmağa çalışırdılar.

- Ermənilərin Azərbaycanın müxtəlif bölgələrində törətdikləri cinayətlərdən aşağıdakıları göstərmək olar:
- Fevralın 6-dan 10-dək davam edən qırğında Bakıda 2 mindən çox azərbaycanlı öldürüldü.
- Mayın 24-də İrəvanda 11 nəfər qətlə yetirildi.
- Yayda Məngüs, Güllücə, Kamal, Uşu, Təkyə kəndləri viran edildi.
- Buna baxmayaraq Qacar, Şeyxməli, Xırmancıq kəndlərində erməni quldur dəstələrinin hücumlarının qarşısı alınmış, əhali onları geri çəkilməyə məcbur etmişdi.
- Avqust ayında Şuşada törədilən milli qırğının qarşısı alındı və döyüş azərbaycanlıların qələbəsi ilə başa çatdı.

## Şimali Azərbaycanda milli-demokratik hərəkat

- XX əsrin əvvəllərində Şimali Azərbaycanda milli və ictimai zülm olduqca dözülməz idi. Qonşu xalqlar daha asanlıqla milli məktəblər, anadilli mətbuat, kilsə açdıqları halda, azərbaycanlılara bu imkanlar az verilir, onlar hətta təzyiqlərə məruz qalırdılar.
- Rusiyada 1905-1907-ci illər inqilabı Azərbaycanda milli burjuaziyanın formalaşmasına və milli şüurun inkişafına böyük təsir göstərdi.
- İmperiyanın və dünyanın müxtəlif elm ocaqlarında təhsillərini başa vurub qayıdan gənclər milli-demokratik hərəkatın yaranmasında və inkişafında böyük rol oynayırdılar.
- Milli hərəkatda "millət və hürriyyət" və s. ideyalar geniş vüsət almışdı.
- Milli ziyalıların qabaqcıl nümayəndələri Həsənbəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Firudin bəy Köçərli, Məmməd Əmin Rəsulzadə və b. obyektiv olaraq Azərbaycanın milli müstəqilliyini ümum-türk azadlığının tərkib hissəsi kimi qarşıya qoyurdular.
- Milli hərəkatın əsas aparıcı qüvvəsi milli burjuaziya və demokratik ziyalılar idi.

❖ 1905-ci ilin yaz - yay aylarında Əlimərdan bəy Topçubaşovun bilavasitə rəhbərliyi ilə hazırlanmış və Nazirlər Kabinetinə verilmiş ərz-hallar Azərbaycanın çar hökumətinə təqdim etdiyi ilk proqram sənədi idi.

❖ Bu ərz-hallarda Qafqazda, o cümlədən Azərbaycanda islahatların keçirilməsi tələb edilirdi.

❖ 1905-ci il avqustun 15-də Nijni-Novqorodda keçirilən **Ümumrusiya müsəlmanlarının I qurultayı** "İttifaqi-müslimin" ("Müsəlman ittifaqı") adlı təşkilat yaratmağı qərara aldı.

❖ Çarizmin 1905-ci il 17 Oktyabr manifestindən sonra Ə.Topçubaşov və Ə.Ağayev Peterburqda yaşayan tatar Əbdürrəşid İbrahimovla birlikdə "Müsəlman ittifaqı"nın nizamnaməsini və proqramını hazırladılar.

❖ 1906-cı il yanvarın 15-25-də Peterburqda keçirilən **Ümumrusiya müsəlmanlarının II qurultayında** bu nizamnamə və proqram bəyənildu. Proqramda Ümumrusiya türklərini birləşdrimək və çarizmə qarşı vahid cəbhədə mübarizə aparmaq vəzifəsi qoyuimuşdu.

❖ Qurultayda siyasi problemlərlə yanaşı, türklər yaşayan bölgələrdə yeni tipli məktəblərin yaradılması, ibtidai icbari təhsilə keçilməsi, təhsilin ana dilində aparılması, milli kadrların hazırlanması üçün Bakıda, Kazanda, Baxçasarayda pedaqoji institutların açılması qərara alındı.

❖ Məhz bu qurultayın təsiri ilə sonralar türklərin yaşadığı bölgələrdə məktəblər şəbəkəsi genişləndirildi.

❖ Milli mətbuat çoxaldı.

❖ Milli burjuaziyanın nümayəndələri, o cümlədən H.Z.Tağıyev öz xərcləri hesabına istedadlı gəncləri Rusiya və Avropanın ali məktəblərinə oxumağa göndərdilər.

❖ 1905-ci ilin payızında "Müsəlman cəmiyyəti xeyriyyəsi", "Müdafiə və müsəlman kübarları və ziyalılarının ittifaqı cəmiyyəti",

❖ 1906-cı ildə "Nəşri maarif' və "Nicat" cəmiyyətləri (H.Z.Tağıyevin və M.Muxtarovun xeyriyyəçiliyl ilə) təşkil edildi.

❖ 1906-cı ilin avqustunda keçirilən Azərbaycan müəllimlərinin I qurultayının əsas qayəsini milli dilin azad inkişafı və təhsilin ana dilində olması təşkil edirdi.

## Şimali Azərbaycanda milli partiyaların yaradılması

❖ XX əsrin əvvəllərində Azərbaycanda müxtəlif təşkilat və partiyalar yaradılmışdı:

❖ 1902-ci ildə M.Ə.Rəsulzadənin rəhbərliyi ilə ilk gizli təşkilat olan "Müsəlman gənclik təşkilatı" yaradıldı.

❖ 1904-cü ilin payızında Mir Həsən Mövsümov, Məmməd Həsən Hacınski və Məmməd Əmin Rəsulzadənin təşəbbüsü ilə "Hümmət" təşkilatı yaradıldı.

❖ Bu təşkilat Rusiya Sosial-Demokrat Fəhlə Partiyası (RSDFP) Bakı Komitəsinin nəzdində fəaliyyət göstərirdi.

❖ 1904-1905-ci illərdə "Hümmət" təşkilatının "Hümmət" adlı qəzeti nəşrə başladı.

❖ Tədricən bolşeviklərin təsiri altına keçən bu təşkilat əvvəlki milli qayəsini itirdi.

❖ M.Ə.Rəsulzadə və onun ideya dostları tədricən bu təşkilatdan uzaqlaşdılar.

❖ M.Ə.Rəsulzadə Rusiyanın müstəmləkə idarə üsuluna qarşı Azərbaycan istiqlal hərəkatının təməlini qoydu.

❖ 1905-ci ildə Əhməd bəy Ağayev vahid milli təşkilat - **"Difai"** ("Müdafiə") Partiyasını yaratdı.

➢ Partiyanın mərkəzi komitəsi Bakıda yerləşirdi.

➢ Azərbaycanın müxtəlif bölgələrində onun şöbələri yaradılmışdı.

➢ Partiyanın yaradılmasında əsas məqsəd azərbaycanlılara qarşı törədilən milli qırğınların qarşısını almaq, maarifçiliyi genişləndirmək və s. idi.

➢ "Difai"nin Qarabağ şöbəsinin 400 nəfərlik hərbi dəstəsi var idi.

➢ Gəncə şöbəsi Ə.Rəfibəylinin başçılığı ilə erməni quldurlarına layiqli cavab verirdi.

- 1907-ci ildə Gəncədə **İsmayıl xan Ziyadxanlının** rəhbərliyi ilə yaradılan "Müdafiə" təşkilatının qarşısında duran əsas məqsəd əhali içərisində maarifi yaymaq, onların hüquq və mənafelərini qorumaq idi.
- 1907-ci ildə Bakıda Şərifzadə və Guvarlinskinin rəhbərliyi ilə yaradılan "İttifaq" təşkilatının qarşıya qoyduğu əsas məqsəd müsəlman əhalini erməni - rus silahlı birləşmələrinin soyqırımından qorumaq idi,
- 1911-ci ildə "Müsavat" ("Bərabərlik") Partiyası yaradıldı.
- Onun 1912-ci ildə çap edilmiş proqramında müsəlman xalqlarının birliyinə, müstəqilliyinə və dövlətçiliyinin bərpasına nail olmaq əsas vəzifə kimi irəli sürülürdü.
- Partiyanın əsas şüarı "türkləşmək, islamlaşmaq və müasirləşmək" idi.
- Azərbaycanın, Qafqazın, eləcə də Rusiyanın müsəlmanlar yaşayan digər bölgələrində "Müsavat" Partiyasının şöbələri yaradılmışdı.
- 1913-cü ildə öz fəaliyyətini dayandıran bu siyasi təşkilat yalnız 1917-ci ildə fəaliyyətini bərpa etməyə başaladı.
- "Müsavat" Partiyası Azərbaycan Cümhuriyyətinin yaranmasında mühüm rol oynadı.
- 1915-ci ildə M.Rəsulzadə partiyanın mətbu orqanı olan "Açıq söz" qəzetini nəşr etdirməyə başladı.

## Azərbaycanlı deputatlar Rusiyanın Dövlət Dumasında

❖ II Nikolayın Dumaya seçkilər keçirilməsi haqqında 1905-ci il 11 dekabr fərmanına uyğun olaraq 1906-cı il mayın 31 -də Azərbaycanda **I Dumaya** seçkilər keçirildi.

❖ Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanlı, Məmmədiağı Əliyev, Əsədulla bəy Muradxanov, Əbdürrəhim bəy Haqverdiyev I Dumaya deputat seçildilər.

❖ Rusiya müsəlmanları içərisindən seçilən **46 deputat** Ə.Topçubaşov başda olmaqla "Müsəlman fraksiyası"nda birləşdi.

❖ 1906-cı ilin aprelində işə başlayan və cəmi **72 gün** fəaliyyət göstərən I Duma iyulun 7-də buraxıldı.

❖ 1906-cı ilin sonu - 1907-ci ilin əvvəlində Azərbaycanda **II Dumaya** seçkilər keçirildi.

❖ Fətəli xan Xoyski, Məmməd ağa Şahtaxtinski, Xəlil bəy Xasməmmədov, İsmayıl Tağıyev (Hacı Zeynalabdin Tağıyevin oğlu), Mustafa Mahmudov, Zeynal Zeynalov bu dumaya deputat seçildilər.

❖ II Duma 1907-ci il 20 fevralda ilk iclasına başladı.

❖ Fəaliyyətini 103 gün davam etdirən II Duma 1907-d il iyulun 3-də buraxıldı və III Dumaya seçkilər haqqında qanun verildi.

❖ Qafqaz, Mərkəzi Asiya, Sibir xalqları seçki hüququndan məhrum edildilər.

❖ 1907-ci ildə **III Dumaya** Cənubi Qafqaz müsəlmanlarından cəmi bir nəfər - Xəlil bəy Xasməmmədov seçildi.

❖ 1912-ci ilin sentyabr - oktyabr aylarında **IV Dumaya** seçkilərdə də Azərbaycandan yalnız bir nəfər - Məmmədyusif Cəfərov deputat seçildi.

## 1910-1914-cü illərdə Şimali Azərbaycanda fəhlə və kəndli çıxışları

- ❖ Fəhlələrin ağır vəziyyəti 1910-1911-ci illərdə Bakıda bir sıra pərakəndə çıxışların baş verməsinə səbəb oldu.
- ❖ 1912-ci il aprelin 4-də Sibirdə Lena mədənlərində fəhlələrin dinc nümayişinin güllləbaran edilməsi Azərbaycanda tətil hərəkatına təkan verdi.
- ❖ Mayın 7-də Nuxada başlayan tətil ayın 12-də ümumi xarakter aldı.
- ❖ Bu tətil mayın 15-də sahibkarlarla fəhlələr arasında müştərək müqavilənin bağlanması ilə nəticələndi.
- ❖ Müqaviləyə görə, iş günü qısaldıldı, əmək haqqı qismən artırıldı.
- ❖ 1913-1914-cü illərdə tətil və nümayişlərin sayı çoxaldı.
- ❖ 1911-1912-ci illərdə Azərbaycan qəzalarında çıxışlar da genişləndi.
- ❖ Qaçaq hərəkatı qəzalarda hökumət dairələrini lərzəyə saldı.
- ❖ Qandal Nağı və Məşədi Yolçunun dəstələri xüsusilə fərqlənirdi.

## Cənubi Azərbaycan İran İnqilabı (1905-1911) ərəfəsində. İnqilabın başlanması. Təbriz üsyanı.

❖ XX əsrin başlanğıcında İranda, o cümlədən Cənubi Azərbaycanda hakim dairələrin siyasətindən narazı qalan qüvvələrin sayı getdikcə artırdı.

❖ Cəmiyyətin narazı sosial təbəqələri içərisində formalaşmaqda olan burjuaziya xüsusilə seçilirdi.

❖ 1905-ci il dekabrın 12-də Tehranda, o cümlədən Cənubi Azərbaycan şəhərlərində bazar və dükanlar bağlandı, tacir, sənətkar və demokratik ruhlu ruhanilərin bəstə oturması (oturaq etiraz forması) ilə inqilab başlandı.

❖ İnqilab iştirakçılarının əsas tələbləri:

1. məşrutə (konstitusiya) qəbul edilməsi,
2. məclis çağırılması,
3. xarici məmurların tutduqları vəzifələrdən kənarlaşdırılması və s. idi.

❖ 1906-cı il avqustun 5-də şah konstitusiya haqqında fərman verdi.

❖ Bunun ardınca da məclisə seçkilər barəsində fərman elan olundu.

❖ Lakin az sonra məlum oldu ki, şah sarayı vədləri yerinə yetirmək niyyətində deyil.

❖ Bunu görən bir dəstə ruhani sentyabrın 20-də Təbrizdə ingilis konsulluğunda bəstə oturdu.

❖ Onların ardınca minlərlə adam Təbrizin "Samsam xan" məclisində bəstə oturdu.

❖ Bəstə oturan 600 nəfərdən çox adam andiçmə mərasimi keçirdi.

❖ Təbrizdəki sentyabr hadisələri konstitusiyanın qəbul olunmasına və məclisin açılmasına kömək etdi.

❖ 1905-1911-ci illər inqilabı dövründə Təbriz təşkilatı və onun "Gizli mərkəz" adlandırdığı rəhbərlik orqanı geniş fəaliyyət göstərirdi.

❖ 1906-cı il sentyabr hadisələrindən sonra məclisə seçkilər başlandı.

❖ Hərəkat başçılarından əncümən (şura) seçildi.

❖ Bu əncümənlər Cənubi Azərbaycanda inqilab vaxtı əsl hakimiyyət orqanları kimi fəaliyyət göstərirdilər.

❖ Məclisə seçkilər Təbrizdə 1906-cı il noyabrın 5-də, Azərbaycanın qalan yerlərində isə dekabrın əvvəllərində başa çatdı.

❖ 1906-cı il dekabrın 30-da ölüm yatağında olan Müzəffərəddin şah hazırlanmış konstitusiyanı imzaladı.
❖ Lakin 1907-ci il yanvarın 19-da taxta çıxan Məhəmmədəli şah atasının imzaladığı konstitusiyanı tanımaq istəmədi.
❖ 1907-ci il fevralın 8-də Təbrizdə ilk silahlı üsyan baş verdi.
❖ Əyalət valisi və başqa dövlət nümayəndələri həbsə alındı. Şəhərlərdə real hakimiyyət əyalət şuralarının əlinə keçdi.
❖ Avqust ayında şah Azərbaycana yeni vali təyin etdi.
❖ Bu isə Təbrizdə və bir çox vilayətlərdə ikihakimiyyətliliyin yaranmasma səbəb oldu.
❖ 1907-ci il fevralın 8-də Tehrana çatan Azərbaycan nümayəndəliyinin fəaliyyətə başlaması inqilabi hərəkatda yüksəliş yaratdı.
❖ Azərbaycan nümayəndəliyinin şah sarayına verdiyi tələblər müzakirə olunduqdan sonra şaha ultimatum şəklində göndərildi.
❖ Ölkənin bir çox yerlərində olan çıxışlar şahı məcbur etdi ki, verilən bütün tələbləri qəbul etsin.

❖ Cənubi Azərbaycan İran inqilabının mühüm və həlledici mərkəzinə çevrilmişdi.

❖ Bunu aşağıdakı faktlardan görmək olar:

1) Azərbaycan əyalət şurası regionda hakimiyyət orqanına çevrildi.
2) Cənubi Azərbaycanın iri şəhərlərində və digər vilayət mərkəzlərində dünyəvi elmləri tədris edən yeni tipli məktəblər açıldı.
3) Azərbaycan vilayət şurası silahlı dəstələr yaratmağa başladı.
4) Konstitusiya qəbul edildi.
5) 1907-ci il oktyabrın 7-də konstitusiyaya əlavələr edildi.

❖ 1908-ci il iyunun 23-də şahın göstərişi ilə rus kazakları hücum edərək məclisi dağıtdı. Əksinqilabi çevriliş baş verdi.

❖ Vilayətlərdə şuralar dağıdıldı, inqilabçılar üzərinə hücuma keçildi.

❖ İrticanın hücumu Təbrizdə hərəkatın daha yüksək pilləyə qalxmasına səbəb oldu.

❖ Bu dövrdən başlayaraq Cənubi Azərbaycan İran inqilabının mərkəzinə çevrildi.

## Cənubi Azərbaycan İran inqilabının mərkəzi kimi

- ❖ 1908-ci il iyunun 23-də Tehranda əksinqilabi çevriliş dövründə Təbrizdəki üsyan əslində vətəndaş müharibəsinə çevrildi.
- ❖ Əmirəxiz məhəlləsi "Sərdare-milli" (milli başçı) kimi çağırılan Səttarxanın başçılıq etdiyi fədai dəstələrinin alınmaz qalasına çevrilmişdi.
- ❖ Səttarxan öz silahdaşları "Salare milli" (milli sərkərdə) kimi tanınan Bağırxan, Hüseynxan və başqaları ilə birlikdə Təbrizin müdafiəsində böyük hünər göstərdilər.
- ❖ Təbrizin dörd ay davam edən müdafiə döyüşlərindən sonra üsyançılar hücuma keçdilər (1908-ci il, sentyabr).
- ❖ Oktyabrın 12-də Təbriz əksinqilabi qüvvələrdən təmizləndi.
- ❖ 1908-ci ilin sonu - 1909-cu ilin əvvəlində əksinqilabçılar Maku istisna olmaqla Azərbaycanın bütün qərb vilayətlərindən qovuldular.
- ❖ Təbriz inqilabçılarına Qafqazdan, Mərkəzi Asiyadan, Türkiyədən və d. yerlərdən böyük yardımlar edildi.

❖ Şimali Azərbaycan varlılarından H.Z.Tağıyev, N.Mütəllibov İran inqilabına yardım olaraq böyük miqdarda pul vəsaiti və silah göndərmişdilər.

❖ Təbrizdəki hadisələrin təsiri ilə Tehranda və bir çox əyalətlərdə inqilabi iş yenidən canlandı.

❖ 1909-cu il yanvarın sonunda Təbriz yenidən əksinqilabi qüvvələr tərəfindən mühasirəyə alındı.

❖ İngiltərə ilə əlbir hərəkət edən **Rusiya** xarici təbəələri qorumaq bəhanəsi ilə aprelin 25-də Cənubi Azərbaycana qoşun yeritdi.

❖ Şah qoşunları döyüşləri dayandırıb, şəhəri tərk edəndən sonra Təbrizə rus qoşunları daxil oldu.

❖ Mayın əvvəlində ruslar Təbriz mücahidlərini tərk-silah etməyə başladılar.

❖ Bu hadisələr Gilan, İsfahan vilayətlərində inqilabi qüvvələri ayağa qaldırdı.

❖ Onlar Tehranı əksinqilabi qüvvələrdən azad etdilər.

❖ 1909-cu il iyulun əvvəlində Məhəmmədəli şah devrildi. Onun 14 yaşlı oğlu Əhməd şah elan olundu. Konstitusiya bərpa edildi. Cənubi Azərbaycan şəhərlərində devrilmiş şuraların hakimiyyəti bərpa olundu.

❖ 1910-cu il martın 11-də mərkəzi hökumət Səttarxanı Tehrana danışıqlara dəvət etdi.

❖ O, aprelin 15-də 100 nəfərlik fədainin müşayiəti ilə Tehrana daxil oldu. Az sonra Səttarxanın tərəfdarlarına xaincəsinə basqın edildi. Döyüşdə 18 nəfər həlak oldu. 40 nəfər, o cümlədən Səttarxan yaralandı.

❖ 1911-ci il dekabrın 20-də rus qoşunları Təbrizə hücum etdilər. Dekabrın 28-də inqilab məğlub oldu. Rus zabitlərinin qurduğu hərbi məhkəmədə bir çox inqilab rəhbərləri edam edildi.

❖ Əyalət şurasının binası, Səttarxanın, Bağırxanın və digər inqilabçıların evləri partladılaraq xarabaya çevrildi.

❖ İnqilab mərkəzləri və vilayət şuraları dağıdıldı.

❖ Beləliklə, 1905-1911-ci illər İran inqilabı xarici müdaxiləçilərin ordusu tərəfindən yatırıldı.

❖ Bu inqilabın Azərbaycan xalqının ictimai-siyasi və milli şüurunun inkişafına böyük təsiri oldu.

## AZƏRBAYCAN BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

❖ Dünyanı yenidən bölüşdürmək istəyən "Üçlər ittifaqı" və "Antanta" hərbi-siyasi blokları arasında qarşıdurma Birinci dünya müharibəsinə gətirib çıxartdı.

❖ Hərbi bloklara daxil olan dövlətlərdən hər birinin işğalçılıq planında Azərbaycan və onun nefti mühüm yer tuturdu. Azərbaycanda neft sənayesində hakim mövqe tutmaq uğrunda mübarizədə alman və ingilis inhisarları xüsusilə fərqlənirdilər.

❖ Almaniya öz məqsədinə çatmaq üçün Türkiyənin iştirakı ilə Qafqazı və Ön Asiyanı nüfuz dairəsinə almaq, türk ordusunun köməyi ilə Hindistana və Əfqanıstana yol açmaqla Rusiyanın və İngiltərənin mövqelərinə zərbə vurmaq niyyətində idi.

❖ Almaniyanın Qafqaza dair işğalçılıq planına görə, Rusiyanın müharibədə məğlubiyyətindən sonra Qafqazda Rusiya ilə Türkiyə arasında xristian bufer dövləti, habelə Türkiyə sərhədi yaxınlığında bitərəf Qafqaz müsəlman dövləti yaradılmalı idi.

❖ Rusiyanın bu müharibədə əsas məqsədi boğazlara sahib olmaq və Türkiyəni bölüşdürmək idi. Ona görə də Rusiyaya qarşı müharibədə Türkiyənin Almaniya ilə yaxınlaşması təbii idi.

## Qafqaz cəbhəsində hərbi əməliyyatlar

- 1914-cü il oktyabrın 20-də Rusiya Türkiyəyə müharibə elan etdi. Bununla da Qafqazda hərbi əməliyyatlar başlandı.
- Türk qoşunları Qars-Batum istiqamətində Cənubi Qafqaza hücum etməklə yanaşı, Cənubi Azərbaycan ərazisinə də girdilər.
- Ənvər paşanın və qərargahının hazırladığı hərbi plana görə, Qafqaz cəbhəsində rus qoşunlarına əsas zərbə Sarıqamış əməliyyatında endirilməli idi.
- Əməliyyata Ənvər paşanın özü rəhbərlik edirdi.
- Sarıqamış əməliyyatı 1914-cü il dekabrın 4-də başlandı və 1915-ci il yanvarın 18-nə kimi davam etdi.
- Çətin döyüşlərdə ağır itki verən türk qoşunu məğlub oldu.
- Canlı qüvvənin və hərbi texnikanın çoxluğu, habelə almanların hazırladığı əməliyyat planındakı nöqsanlar rus ordusuna qələbə qazandırdı.
- Bu döyüşdən sonra Təbrizi tutan rus qoşunu türk ordusunu Cənubi Azərbaycandan çıxartdı.
- Müharibənin sonuna kimi Qafqaz cəbhəsində ciddi dəyişiklik baş vermədi.

❖ Məlum olduğu kimi, Rusiyada yaşayan müsəlman türkləri orduya çağırılmırdılar.

❖ Bundan başqa, çar hökuməti Azərbaycan türklərinin cəbhələrdə Osmanlı ordusuna qarşı vuruşmayacağından, silahı müstəmləkə-çilərin özünə qarşı çevirəcəklərindən ehtiyat edərək Birinci dünya müharibəsi dövründə onları orduya çağırmamışdı.

❖ Azərbaycandan rus ordusunda xidmətə yalnız ali müsəlman silkinə məxsus olanlar qəbul edilirdi.,

❖ Birinci dünya müharibəsi dövründə rus ordusunda 200 nəfərdən çox azərbaycanlı zabit qulluq edirdi.

❖ Müharibədə "Müqəddəs Georgi" ordeni alan azərbaycanlılar bunlar idi:

1) Nijeqorod draqun alayının rotmistri Teymur Novruzov;
2) ilk azərbaycanlı təyyarəçi Fərrux ağa Qayıbov;
3) müsəlman süvari alayının döyüşçüsü Tərlan Əliyarbəyov.

- ❖ Hələ rus-yapon müharibəsindən məşhur olan hərbçilər Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Hüseynxan Naxçıvanski, İbrahim ağa Vəkilov Birinci dünya müharibəsi dövründə məşhur sərkərdələr səviyyəsinə yüksəldilər.
- ❖ Lodz əməliyyatı zamanı göstərdiyi şücaətə görə Səməd bəy Mehmandarovun vəzifəsi böyüdüldü və II Qafqaz ordusuna korpus komandanı təyin edildi.
- ❖ Müharibənin gedişində Əliağa Şıxlinski Qərb cəbhəsi artilleriya qoşunlarının rəisi, 1917-ci ilin sentyabrında isə 10-cu ordunun komandam təyin edildi.
- ❖ O, Rusiyanın ən ali ordenləri ilə yanaşı, Fransanın ali rütbəli sərkərdələr üçün nəzərdə tutulan ordenləri ilə də təltif edilmişdi.
- ❖ Birinci dünya müharibəsi dövründə azərbaycanlılardan təşkil olunmuş əlahiddə "tatar süvari alayı" çar generalları tərəfindən "vəhşi diviziya" adlandırılırdı.
- ❖ Sonralar bu alay Azərbaycan Milli ordusunun təşkilində böyük rol oynadı.

**Müharibənin Şimali Azərbaycan iqtisadiyyatına təsiri**

❖ İqtisadiyyatı hərbi rəis üzərinə keçirmək məqsədilə hərbi-sənaye komitəsi təşkil edilmişdi.
❖ Müharibə Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft sənayesindəki durğunluğu daha da dərinləşdirmişdi.
❖ Duru yanacağa tələbat çox olsa da, neft hasilatı nə sənaye, nə də hərbi idarələrin tələbatını ödəyə bilmirdi.
❖ Qazma işləri getdikcə azalırdı. Müharibə başlayanda Azərbaycanda 431 milyon pud neft çıxarılmışdısa, 1917-ci ildə bu rəqəm 402 milyon puda enmişdi. Rusiyada hasil edilən neftin 80 faizindən çoxu Azərbaycanın payına düşürdü.
❖ Dəmir yolu Müdafiə Nazirliyinin xidmətinə verildiyinə görə mülki yüklərin daşınması çətinləşmişdi.
❖ Dəniz gəmiçiliyi daşınmanın öhdəsindən gələ bilmirdi.
❖ Təsərrüfat dağınıqlığı sənayenin digər sahələrində də özünü göstərirdi.
❖ Müharibə başlayan kimi, Gədəbəydəki misəritmə zavodu hərbi sifarişlər yerinə yetirməyə cəlb olunmuşdu. Buna görə müharibə vaxtı orada çalışan qeyri-müsəlman fəhlələrə möhlət verilmişdi və onlar orduya çağırılmırdı.
❖ Ölkədə istehsal olunan strateji məhsullardan biri pambıq idi.
❖ Cəbhə üçün 1915-ci ildə işləyən pambıq-parça fabriklərini xammalla təchiz etmək üçün dövlət komitəsi yaradılmışdı.

❖ Müharibə illərində yeyinti və sənaye müəssisələri də müharibənin ehtiyacları üçün işləyirdi.
❖ Ölkədə kənd təsərrüfatı da böhran keçirirdi.
❖ Əkin sahələri ixtisar edilmiş və mal-qaranın sayı azalmışdı.
❖ 1915-ci ilin iyun ayında çar fərmanına əsasən 18-23 yaşlı 50 mindən artıq azərbaycanlı gənc arxa cəbhədə işləmək üçün səfərbərliyə alınmışdı.
❖ Atlar, öküzlər, arabalar hərbi ehtiyac üçün müsadirə edilmişdi. Kəndlilərdən alınan vergi 50 faiz artırılmışdı.
❖ Azərbaycanda müharibəyə getməmək əvəzinə çağırışçılardan xüsusi vergi alınırdı.
❖ Müharibə ölkədə ərzaq qıtlığını və bahalığı son dərəcə artırdı. Ölkədə aclıq başlamışdı.
❖ Bakıda iri qoşun hissələrinin yerləşdirilməsi əhalinin vəziyyətinin daha da ağırlaşmasına səbəb olmuşdu.

# Cənubi Azərbaycan müharibə ərəfəsində

- ❖ 1905-1911-ci illər inqilabı Cənubi Azərbaycanda xalqın vəziyyətini əsaslı şəkildə dəyişdirə bilmədi. Azərbaycanlılar yenə də milli hüquqlardan məhrum oldu.
- ❖ Cənubi Azərbaycanda əhalinin əsas məşğuliyyəti yenə də kənd təsərrüfatı sahələri idi. Əvvəlki torpaq mülkiyyət formaları qalırdı.
- ❖ Kənd əhalisi yardarlardan və xırdamaliklərdən ibarət idi.
- ❖ Yardar - torpaqsız kəndlilərə, xırdamalik isə azacıq torpaq mülkiyyəti olan kəndlilərə deyilirdi.
- ❖ Cənubi Azərbaycan İranın 4 əyalətindən biri idi.
- ❖ Cənubi Azərbaycan şəhərlərində müxtəlif kustar-sənaye istehsalı üstünlük təşkil edirdi: Təbrizin kustar-sənaye istehsalında əsas yeri məhsulu xaricə ixrac olunan xalçaçılıq tuturdu.
- ❖ Müharibə ərəfəsində Cənubi Azərbaycanda xarici kapitalistlər, əsasən almanlar tərəfindən müxtəlif fabriklər, zavodlar açıldı.
- ❖ 1912-ci ildə alman kapitalistləri Təbrizdə "İran xalça şirkəti" təsis etdilər.
- ❖ Şirkət istehsal olunan xalçaları ABŞ və digər ölkələrə satırdı.
- ❖ Ağır feodal mükəlləfiyyətləri və hədsiz vergilər kəndlilərin, fəhlələrin, xırda və orta burjuaziyanın hökumətdən narazılığını getdikcə artırırdı.
- ❖ Birinci dünya müharibəsi ərəfəsində ölkədə ziddiyyətlər daha da kəskinləşmişdi.

**Erməni quldurlarının azərbaycanlılara qarşı vəhşilikləri**

❖ Müharibədən əvvəl İran özünün bitərəfliyini elan etsə də, onun ərazisi, xüsusən Cənubi Azərbaycan hərbi əməliyyat meydanına çevrilmişdi.

❖ Müharibənin Cənubi Azərbaycanda yaratdığı qarışıqlıqlardan istifadə edən erməni silahlı dəstələri aysorlarla birlikdə Xoy, Salmas, Urmiya, Soucbulaq və s. başqa şəhərlərdə, habelə şəhərətrafı kəndlərdə dükan-bazarları, evləri dağıdır, talan edir, azərbaycanlı əhaliyə qarşı görünməmiş vəhşiliklər edirdilər.

❖ Yalnız türk ordusunun bölgəyə daxil olması azərbaycanlı əhalinin kütləvi şəkildə qətlə yetirilməsinin qarşısını aldı.

❖ Lakin türk qoşunları bölgəni tərk etdikdən sonra erməni, aysor və kürd hərbi dəstələri azərbaycanlıları yenidən qırmağa başladılar.

❖ Bu qırğınlar rus hərbi hissələrinin 1918-ci ilin əvvəlində İrandan çıxarıldığı vaxt daha faciəli şəkil aldı. 1918-ci ilin baharında rus hərbi hissələri Cənubi Azərbaycanı tərk etdikdən sonra ingilislər Zəncan, Miyanə, Xoy və Urmiyanı ələ keçirdilər. Bu vaxt Cənubi Azərbaycanın şimal-qərbində erməni, aysor və kürd quldur dəstələri azərbaycanlılara qarşı əsl soyqırım törətdilər.

❖ 1918-ci ildə türk qoşunlarının yenidən Cənubi Azərbaycana daxil olması bölgədə növbəti dəfə soyqırımın qarşısını aldı.

❖ Müharibə Cənubi Azərbaycanın təsərrüfatının tənəzzülünə gətirib çıxartdı.

## Şimali Azərbaycan Fevral inqilabı və sonrakı dövrdə

❖ Rusiyada 1917-ci il **Fevral inqilabı** nəticəsində çarizmin devrilməsi ilə ölkədə faktik olaraq ikihakimiyyətlilik yaranmışdı.
❖ Paytaxtda yaradılan Müvəqqəti hökumət yerlərdə əvvəlki hakimiyyət orqanlarını ləğv edərək öz hakimiyyət orqanlarını yaratmağa başladı.
❖ Çarizmin devrilməsindən sonra Azərbaycanda gizli fəaliyyət göstərən siyasi partiyalar açıq fəaliyyət göstərdilər.
❖ 1917-ci il martın əvvəlində Bakı Sovetinə keçirilən seçkilərdə xalqın milli mənafeyinə uyğun olmayan yabançı hakimiyyət - Sovetlər yarandı.
❖ Sovetdə əsasən menşevik, daşnak, eser və bolşeviklər təmsil olunmuşdu.
❖ Martın axırlarında şəhərdəki zabit və əsgər deputatları sovetləri birləşərək hərbi deputatlar sovetləri yaratdılar.
❖ Martın 9-da IV Dövlət Dumasının 5 nəfər üzvündən ibarət Xüsusi Cənubi Qafqaz Komitəsi təsis edildi.
❖ Komitə martın 18-də işə başladı. 1917-ci il martın 17-də Müvəqqəti hökumətin Bakıda yerli hakimiyyət orqanı olan İctimai Təşkilatların İcraiyyə Komitəsi yaradıldı.

❖ Azərbaycanın digər şəhər və qəzalarında da İctimai Təşkilatların İcraiyyə komitəsi yaradıldı.

❖ Bu zaman Gəncədə Nəsib bəy Yusifbəyov, Şəfi bəy Rüstəmbəyov, Həsən bəy Ağayevin təşəbbüsü ilə **Türk Ədəmi Mərkəziyyət Federalistlər Partiyası** təşkil olundu.

❖ Bu partiya Rusiyanın tərkibində Azərbaycana ərazi muxtariyyəti verilməsinə tərəfdar olduğunu bəyan etdi.

❖ Azərbaycanda siyasi partiyalarla yanaşı, müsəlman milli şuraları yaradıldı.

❖ Cənubi Qafqazdakı milli şuralar içərisində ən nüfuzlusu Bakı Müsəlman Milli Şurası idi.

## Şimali Azərbaycanda milli-azadlıq hərəkatı

❖ Fevral inqilabından sonra Azərbaycanda milli-azadlıq hərəkatında yeni mərhələ başlandı.

❖ Bu mərhələnin əsas cəhətləri:

1. milli hərəkatın daha kütləvi səciyyə alması;
2. hərəkata milli ziyalıların rəhbərlik etməsi;
3. əhalinin bütün təbəqələrinin Milli dövlətçilik ideyası ətrafında birləşməsi.

❖ 1917-ci il aprelin 15-20-də Bakıda keçirilən Qafqaz müsəlmanlarının qurultayı Rusiya müsəlmanlarının birləşdirilməsi şüarı altında keçdi.

❖ Məhz bu qurultayda yaranmış zəmin əsasında 1917-ci ilin iyun ayının ikinci yarısında federalistlər (Türk Ədəmi Mərkəziyyət Partiyası) Müsavatla birləşdi və **Türk Federalist Müsavat Partiyası** adlandı.

❖ 1917-ci il mayın 1-də Ümumrusiya müsəlmanlarının qurultayı Şəmsi Əsədullayevin Moskvada tikdirdiyi və müsəlmanların sərəncamına verdiyi binada açıldı.

❖ Qurultayın gündəliyinə milli-məhəlli muxtariyyət, maarif, mədəniyyət, müəssislər məclisi, siyasi təşkilatlar və s. məsələlər daxil edilmişdi. Əvvəlki müsəlman qurultaylarında olduğu kimi, bu qurultayda da Ə.M.Topçubaşov və M.Ə.Rəsulzadə türkçülük, millətçilik, istiqlalçılığa xüsusi diqqət verirdilər.

❖ 1917-ci ilin martında Bakıda bolşeviklərin **"Ədalət"** təşkilatı yaradıldı. Bu təşkilat Azərbaycanın cənubundan şimala kəsbkarlığa gəlmiş fəhlələr arasında inqilabi iş görmək və İranın inqilabi-demokratik qüvvələri ilə əlaqə yaratmaq məramına xidmət edirdi.

❖ 1917-cl ilin avqust ayında "Birlik" təşkilatı yaradıldı. Təşkilat Bakının neft mədənlərində və sənaye müəssisələrində Volqaboyu quberniyalardan gəlmiş müsəlman fəhlələr arasında siyasi tərbiyə işi aparmaq üçün bolşeviklər tərəfindən təşkil olunmuşdu.

❖ 1917-ci il oktyabrın 26-da **Müsavat Partlyasının I qurultayı** oldu. M.Ə.Rəsulzadə qurultaydakı giriş sözündə müstəqil Azərbaycan dövlətinin yaradılacağını söylədi.

❖ 1917-ci ildə Azərbaycanda milli-azadlıq uğrunda mübarizə üç istiqamətdə aparılırdı:

1. müvəqqəti hökumətin əsarət altında olan xalqlar barəsində yeritdiyi müstəmləkəçilik siyasətinə qarşı;
2. Sovetlərə qarşı;
3. ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımın qarşısının alınması.

❖ 1917-cl II oktyabrın 25-də Petroqradda bolşevik çevrilişi nəticəsində Müvəqqəti hökumət devrildi.

❖ Oktyabrın 25-26-da Smolnıda keçirilən II Sovetlər qurultayından sonra V.İ.Lenin başda olmaqla sovet diktaturasının əsası qoyuldu.

❖ Bundan sonra Azərbaycanda başlayan istiqlaliyyət uğrunda mübarizə 1918-ci ilin may ayında milli dövlətçiliyin bərpası ilə nəticələndi.

## XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti.
## Maarif və elm.

❖ Şimali Azərbaycanda maarifin inkişafını ləngidən səbəblərdən biri də təhsilin rus dilində aparılması idi. Görkəmli maarifçilərimiz təhsil sahəsində hökumətin müstəmləkə siyasətinə qarşı çıxaraq yeni tələblərlə çıxış edirdilər. Onların tələbləri yeni məktəblərin yaradılmasından, təhsilin icbari və pulsuz olmasından ibarət idi.

❖ Azərbaycanda ən nümunəvi qız məktəbi H.Z.Tağıyevin 1901-ci ildə Bakıda açdığı məktəb idi. 1902-ci ildə Gəncədə açılmış məktəbdə yalnız azərbaycanlı qızlar oxuyurdu.

❖ 1912-ci ildə verilmiş məktəb əsasnaməsinə görə şəhər məktəbləri yuxarı ibtidai məktəblərə çevrildi.

❖ 1914-cü ildə Gəncədə, 1916-cı ildə Bakıda müəllimlər seminariyası fəaliyyətə başladı.

❖ 1917-ci ildə Təbrizdə ilk orta məktəb açılmışıdı.

❖ Dövrün alimlərindən Rəşid bəy İsmayılov, Hacı Həsən Mollazadə və Mirzə Rəhim tarix, Məmməd Qasım Əliyev, Qafur Rəşad Mirzəzadə coğrafiya elminin inkişafında misilsiz xidmətlər göstərmişdilər.

## Mətbuat

❖ 1901—1917-ci illərdə ideya istiqamətinə görə mətbuat üç qrupa bölünmüşdü:

1. demokratik,
2. milli burjuaziya və
3. bolşevik.

❖ Demokratik mətbuatın nümunələri içərisində:

1) 1903-1905-ci illərdə M.Şahtaxtinskinin redaktorluğu ilə ana dilində nəşr olunan "Şərqi-rus" qəzeti və
2) C.Məmmədquiuzadənin redaktorluğu ilə 1906-cı ildən işıq üzü görən "Molla Nəsrəddin" jurnalı xüsusilə seçilirdi.

❖ Vətənpərvər milli burjuaziyanın nümayəndələrinin maliyyələşdirdiyi "Həyat", "İrşad", "Dirilik", "Füyuzat", "İqbal" və s. qəzet və jurnallarda millətin taleyüklü problemlərinə toxunulurdu.

❖ "**İşıq**" jurnalı isə qadınların problemlərindən yazan mətbu orqanı idi.

❖ Bolşevik mətbuatı sinfi mübarizə amilini önə çəkərək milli-azadlıq hərəkatının tələblərinə cavab vermirdi və Azərbaycan mühitinə tamamilə yad idi.

## İncəsənətin inkişafı.

❖ 1904-cü ildə "Müsəlman artistləri cəmiyyəti" yaradılmışdı.

❖ 1909-cu ildə S.Ruhulla, C.Zeynalov və H.Ərəblinskinin köməyi ilə Təbrizdə teatr təşkil olunmuş, teatr binası isə 1916-cı ildə tikilmişdi.

❖ 1908-ci ildə Azərbaycanın ilk operası olan **Ü.Hacıbəyovun** "Leyli və Məcnun" operası tamaşaya qoyuldu.

❖ Azərbaycanda ilk film XIX əsrin sonunda çəkilib:

❖ 1916-cı ildə isə "Neft və milyonlar səltənətində" adlı Azərbaycan filmi çəkildi, həmin ildə "Ölülər" pyesi, M.Maqomayevin "Şah İsmayıl" operası, Z.Hacıbəyovun "Aşıq Qərib" operası tamaşaya qoyuldu.

❖ Rəssamlardan Əzim Əzimzadə satirik qrafikanın inkişafında mühüm rol oynamışdı.

❖ Bəhruz Kəngərli xüsusi rəssamlıq təhsili almış peşəkar rəssam idi.